19 aprel 2023 №29-30 (1999) www.medeniyyet.az

# MƏDƏNİYYƏT

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri

Qəzet 1991-ci ilin yanvarından çıxır

## “Ya Azərbaycan bayrağı altında yaşayacaqlar, ya da çıxıb gedəcəklər”



Hazırda Qarabağın və Şərqi Zəngəzurun bərpa edilməsi məsələsi bizim üçün əsas prioritetdir. Qarabağ və Şərqi Zəngəzurda görülmüş işlər bir daha onu göstərir ki, biz – bu torpaqların sahibləri öz doğma dədə-baba torpaqlarımıza qayıtmışıq. Artıq iki yaşayış məntəqəsində köçmüş köçkünlər yaşayır – Ağalı və Talış kəndlərində. Bu iki layihə artıq bütün Azərbaycan əhalisinə və bütün dünyaya göstərir ki, gələcək Qarabağın və Şərqi Zəngəzurun siması necə olacaq.

Prezident İlham Əliyev bu sözləri aprelin 18-də Salyan şəhərində Azərbaycan Televiziyasına müsahibəsində deyib.

Dövlət başçısı qeyd edib ki, bu il büdcəyə əlavələr ən azı 3 milyard manat səviyyəsində olacaq. Bunun əsas hissəsi Qarabağın və Şərqi Zəngəzurun yenidən qurulmasında istifadə ediləcək. İkinci yerdə bizim hərbi xərclərimiz olacaq: "Müharibədən sonrakı iki il yarım ərzində də ordu quruculuğu məsələlərinə çox böyük diqqət göstərilib. Tam əminliklə deyə bilərəm ki, bugünkü Azərbaycan Ordusu 2020-ci ildə Zəfər çalmış eyni Azərbaycan Ordusundan qat-qat güclüdür. Ancaq, eyni zamanda, yenə də demək istəyirəm, biz hər bir vəziyyətə hər an hazır olmalıyıq. Ona görə bu sahədə – ordu quruculuğu və müdafiə potensialımızla bağlı olan bütün məsələlər əsas vəzifədir, bu vəzifə və Qarabağın, Şərqi Zəngəzurun bərpası vəzifəsi. Ona görə biz əsas vəsaiti bu istiqamətlərə yönəldəcəyik, lazım olan digər xərclər də aparılacaq".

davamı səh. 2-də

## “Çin xalqı köhnə və yaxşı dostlarını heç vaxt unutmur”

### Ulu öndərin 100 illiyi münasibətilə Heydər Əliyev Fondunun xaricdə ilk mədəniyyət tədbiri Pekində keçirilib

Ümummilli lider Heydər Əliyevin 100 illiyi bu günlər Azərbaycanın hüdudlarından kənarda da müxtəlif tədbirlərlə qeyd edilir. Aprelin 17-də Pekində Diaoyutay dövlət iqamətgahında Heydər Əliyevin 100 illiyinə həsr edilən sərgi və konsert təşkil olunub.

Heydər Əliyev Fondunun, Xarici Ölkələrlə Dostluq üzrə Çin Xalq Assosiasiyasının və Azərbaycanın Çindəki Səfirliyinin birgə təşkilatçılığı ilə keçirilən tədbirdə Xarici Ölkələrlə Dostluq üzrə Çin Xalq Assosiasiyasının sədri Lin Sontien, Şanxay Əməkdaşlıq Təşkilatının baş katibi Can Min, Çin Kommunist Partiyası Mərkəzi Komitəsinin xarici əlaqələr şöbəsinin, bu ölkənin Xarici İşlər, Mədəniyyət nazirliklərinin, digər dövlət qurumlarının nümayəndələri, Çində akkreditə olunmuş 50-yə yaxın xarici diplomatik korpusun rəhbərləri iştirak ediblər.




Sərgidə Ulu öndər Heydər Əliyevin həyatının müxtəlif dövrlərini, sovet dönəmində və müstəqillik illərində Azərbaycana rəhbərlik etdiyi zaman gördüyü işləri, keçirdiyi görüşləri, ölkəmizin regionlarına və xaricə səfərlərini, o cümlədən 1994-cü ildə Çin Xalq Respublikasına səfərini əks etdirən fotoşəkillər və məlumatlar nümayiş olunur. Bu, Heydər Əliyev Fondunun xaricdə Ümummilli liderin 100 illiyinə həsr olunan ilk mədəniyyət tədbiridir.

Sərginin açılış mərasimində Xarici Ölkələrlə Dostluq üzrə Çin Xalq Assosiasiyasının sədri Lin Sontien Çin və Azərbaycan arasında dostluğun tarixinin qədim İpək Yolu dövrünə gedib çıxdığını qeyd edərək bu dostluq sayəsində əsrlərdir xalqlarımızın bir-birindən öyrəndiyini deyib. Azərbaycanın gözəl və zəngin torpağının zəhmətkeş və istedadlı nəsillər yetişdirdiyini bildirən Lin Sontien görkəmli dövlət xadimi Heydər Əliyevin böyük nüfuz sahibi olduğunu deyib. Bildirib ki, Heydər Əliyev Azərbaycanın müstəqilliyinin ilk illərində bir çox çətinliklə üzləşdiyi vaxtda tarixi məsuliyyəti öz üzərinə götürərək uzaqgörən siyasi və böyük cəsarəti ilə ölkənin tarixində yeni səhifə açmağa nail olub.

Heydər Əliyevin Çinin yaxın dostu olduğunu, Prezident vəzifəsində bu ölkəyə səfər edərək ikitərəfli münasibətlərin inkişafına tarixi töhfələr verdiyini diqqətə çatdıran Lin Sontien vurğulayıb ki, Çin xalqı köhnə və yaxşı dostlarını heç vaxt unutmur. Məhz bunun nəticəsidir ki, Xarici Ölkələrlə Dostluq üzrə Çin Xalq Assosiasiyası Heydər Əliyevin anadan olmasının 90-cı ildönümündə ona həsr olunan kitabın Çin dilində nəşrini təqdimatını təşkil edib. Dahi insanların xatırlanması istiqamətində onların irsinin öyrənilməsi vacibdir.

davamı səh. 3-də

## Kinoforum keçiriləcək




Mədəniyyət Nazirliyi və Heydər Əliyev Mərkəzinin təşkilatçılığı ilə Ümummilli lider Heydər Əliyevin 100 illik yubileyi münasibətilə "Azərbaycan kinosu – 125: reallıq, çağırışlar və hədəflər" mövzusunda Kinoforum keçiriləcək.

20-21 aprel tarixlərini əhatə edəcək forum Heydər Əliyev Mərkəzində gerçəkləşəcək. Forumda iştirak etmək istəyənlər aprelin 3-dək nazirliyin rəsmi internet resursunda – culture.gov.az saytı üzərindən qeydiyyatdan keçiblər.

Rejissor, ssenarist, bəstəkar, aktyor, operator, prodüser və bu sahənin mütəxəssislərinin bir araya gələcəyi tədbirdə 125 yaşlı Azərbaycan kinosunun mövcud vəziyyəti, problemləri, inkişaf istiqamətləri və s. müasir dövrün çağırışları kontekstində müzakirə olunacaq.

## Anarın “Söz dünyası” çoxcildliyinin təqdimatı olub

Aprelin 17-də Milli Kitabxanada Azərbaycan Yazıçılar Birliyinin (AYB) sədri Xalq yazıçısı Anarın 85 illik yubileyinə həsr olunmuş tədbir və yazıçının Mədəniyyət Nazirliyi tərəfindən nəşr edilən çoxcildlik "Söz dünyası" kitabının təqdimatı keçirilib.

Milli Kitabxananın direktoru professor Kərim Tahirov giriş sözündə Anarın təkcə Azərbaycan ədəbiyyatının deyil, Türk dünyası ədəbiyyatının canlı klassiki olduğunu vurğulayıb, yazıçının bu günlərdə Özbəkistan Respublikasının "Dostluq" ordeni ilə təltif olunması münasibətilə təbrik edib.

Tədbirdə çıxış edən Xalq yazıçısı Elçin bildirib ki, 1960-cı ildə Anarın hekayələri çap olunduğu vaxtdan yazdığı əsərlər ona böyük şöhrət gətirib. O, 85 yaşa çatsa da, öz yaradıcılığını daim uğurla inkişaf etdirir: "85 rəqəminin fəlsəfi mənası var.




Bir tərəfdən insanın surətindən xəbər verirsə, digər tərəfdən yaşanmış həyatı ifadə edir. Anar bu illəri şərəflə yaşayıb. Bu yaşda olsa da, gənclik enerjisini özündə saxlayıb. Dostum Anara sağlıqlı, uzun ömür arzulayıram".

AMEA-nın prezidenti, Milli Məclisin deputatı, akademik İsa Həbibbəyli qeyd edib ki, Xalq yazıçıları Anarın və Elçinin ədəbiyyatımızın inkişafında danılmaz rolu var. Onlar ədəbiyyatımızda 60-cılar nəslinin görkəmli nümayəndələri kimi yeni mərhələ yaradıblar. Anarın "Nəsrin fəzası" əsərini 60-cı illər ədəbiyyatının manifesti hesab etmək olar. Onun professionallığı ilə novatorluğu bir-birini tamamlayır.

davamı səh. 3-də

## “Qobustan qayaüstü təsvirləri incəsənətdə”



Aprelin 18-də Muzey Mərkəzinin sərgi qalereyasında "Qobustan qayaüstü təsvirləri incəsənətdə" adlı sərgi keçirilib. Beynəlxalq Abidələr və Tarixi Yerlər Günü ilə əlaqədar açılan sərgi Qobustan Milli Tarix-Bədii Qoruğu tərəfindən təşkil olunmuşdu.

Qobustan qoruğunun direktoru Vüqar İsayev çıxış edərək 18 aprel – Beynəlxalq Abidələr və Tarixi Yerlər Gününün tarixi və əhəmiyyəti barədə danışdı. Dedi ki, hər il bir devizlə keçirilən gün bu il "İrs dəyişiklikləri" adı altında təşkil olunur. Qeyd olundu ki, Qobustan qoruğu tərəfindən abidələrə neqativ təsirlərin qarşısının alınması və qabaqlayıcı tədbirlərlə bağlı çoxsaylı seminar və layihələr həyata keçirilir.

davamı səh. 2-də

## “İrs dəyişiklikləri” – abidələr və tarixi yerlər həm də diqqət istəyir




18 aprel Beynəlxalq Abidələr və Tarixi Yerlər Günüdür. Tarixi Yerlər və Abidələrin Mühafizəsi Şurasının (İCOMOS) təklifi ilə UNESCO tərəfindən 1983-cü ildə təsis olunan bu əlamətdar günün məqsədi insanların diqqətini abidələrin və tarixi yerlərin qorunmasına yönəltməkdir.

Beynəlxalq Abidələr və Tarixi Yerlər Gününün builki mövzusu "İrs dəyişiklikləri"dir.

Əlamətdar gün ölkəmizdə də ənənəvi olaraq qeyd edilir. Bu münasibətlə qoruqlarda, tarixi məkanlarda müxtəlif tədbirlər, sərgilər, maarifləndirici aksiyalar təşkil edilir.

Qeyd edək ki, Azərbaycanın üç tarix-mədəniyyət və abidələr məkanı – Qobustan qayaüstü rəsmləri (Qobustan Milli Tarix-Bədii Qoruğu), İçərişəhər Qız qalası və Şirvanşahlar sarayı ilə birlikdə ("İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu) və Şəki şəhərinin tarixi hissəsi Şəki xan sarayı ilə birlikdə ("Yuxarı Baş" Dövlət Tarix-Memarlıq Qoruğu) UNESCO-nun Dünya İrsi Siyahısına daxil edilib. Onlardan biri – Qobustan qoruğu Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin tabeliyində fəaliyyət göstərir. Ümumilikdə isə Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin tabeliyində 14 tarix-mədəniyyət qoruğu var.

Aprelin 18-də Qəbələ Dövlət Tarix-Bədii Qoruğunda tədbir keçirilib. Qoruğun direktoru Zahir Kərimov əlamətdar günün tarixindən söz açıb. O, Qəbələ Dövlət Tarix-Bədii Qoruğunun yaranması, ötən müddət ərzində burada aparılan arxeoloji tədqiqatlar, qazıntı işləri, aşkar olunan tapıntılar barədə ətraflı məlumat verib.

Tədbir iştirakçıları sonra Qəbələ rayon Mədəniyyət Mərkəzi Bum qəsəbə Mədəniyyət evinin "Zopu-zopu" etnoqrafik folklor rəqs ansamblının, Hacıalılı kənd Mədəniyyət evinin "Gülüstan", Cığatelli kənd Mədəniyyət evinin "Gülbuta" folklor qruplarının çıxışlarını izləyiblər. Sonda Qəbələ Arxeoloji Mərkəzinin həyətində rayonun tarixi abidələrini, təbiətini özündə əks etdirən fotolardan ibarət sərgi ilə tanışlıq olub.

mövzunun davamı səh. 4-də

## “Sürrealizm mənəm!”




Aprelin 26-da Heydər Əliyev Mərkəzində XX əsr təsviri sənətinin ən məşhur simalarından olan ispan rəssamı Salvador Dalinin "Sürrealizm mənəm" adlı sərgisi açılacaq.

Salvador Dalinin Azərbaycanda ilk dəfə təqdim olunacaq rəsmləri sırasında müəllifin qrafik əsərləri, şüşədən və bürüncdən hazırlanan heykəltəraşlıq nümunələri nümayiş olunacaq.

Heydər Əliyev Mərkəzində təqdim ediləcək əsərlər dünyada S.Dalinin orijinal işlərindən ibarət olan ən böyük kolleksiyalardan biridir.

Sərgi oktyabrın 8-dək davam edəcək.

“Mirzə Şəfi Vazehin Şərq lirikası Qərb musiqisində”



səh. 3

Uşaq İncəsənət Festivalının birinci mərhələsi başlanıb

səh. 2



Narkomaniyanın fəsadlarından bəhs edən yeni tamaşa

səh. 4

# A.Q.Kərimlinin Azərbaycan Respublikasının mədəniyyət naziri təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 5-ci bəndini rəhbər tutaraq qərara alıram:

Adil Qabil oğlu Kərimli Azərbaycan Respublikasının mədəniyyət naziri təyin edilsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri, 14 aprel 2023-cü il**

# A.Q.Kərimlinin Azərbaycan Respublikası mədəniyyət nazirinin birinci müavini vəzifəsindən azad edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq qərara alıram:

**1.** Adil Qabil oğlu Kərimli Azərbaycan Respublikası mədəniyyət nazirinin birinci müavini vəzifəsindən azad edilsin.
**2.** Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri, 14 aprel 2023-cü il**

# Uşaq İncəsənət Festivalının birinci mərhələsi başlanıb

Ümummilli lider Heydər Əliyevin 100 illik yubileyi münasibətilə Mədəniyyət Nazirliyi, Elm və Təhsil Nazirliyi və Heydər Əliyev Mərkəzinin birgə təşkil etdiyi Uşaq İncəsənət Festivalının birinci mərhələsi keçirilir.

Aprelin 17-də respublika üzrə ilkin olaraq 30 müəssisədə birinci mərhələyə start verilib. Aprelin 18 və 19-da isə digər müəssisələrdə ilk mərhələ başlanıb. Ümumilikdə isə festival tədbirləri 121 mədəniyyət müəssisəsində gerçəkləşəcək.

Üç turdan ibarət, 21 nominasiyada üç yaş qrupu (6-9 yaş, 10-13 yaş və 14-17 yaş) üzrə keçirilən festivalın respublikamızın bütün rayon və şəhərlərindən, o cümlədən Naxçıvan Muxtar Respublikasından 27 minədək iştirakçısı var.

Festivalın birinci mərhələsində iştirakçıları qiymətləndirmək üçün münsif kimi ümumilikdə 2500-dən çox mütəxəssis (hər nominasiya üzrə üç nəfər olmaqla) cəlb edilib. Obyektivlik və şəffaflığın təmin edilməsi məqsədilə münsiflərin adları açıqlanmayacaq. Festival ərzində 320 koordinator və 250 sistem inzibatçısı fəaliyyət göstərəcək.

Qeyd edək ki, peşəkar və həvəskar kateqoriyaları üzrə keçirilən festivalın birinci mərhələsi aprel-iyun aylarını əhatə edəcək. II mərhələ iyun-avqust aylarında reallaşacaq. Bu mərhələnin qalibləri final mərhələsində iştirak hüququ əldə edəcəklər.

Final mərhələsi sentyabr ayında Bakıda keçiriləcək. Finalın yeri, tarixi və vaxtı festivalın rəsmi internet portalında (uif.az), eləcə də kütləvi informasiya vasitələrində elan olunacaq.

Festivalın yekununda ən çox nominasiya üzrə iştirak etmiş və fəallıq göstərmiş şəhər və ya rayon növbəti il festivala ev sahibliyi hüququ qazanacaq.

# "Qobustan qayaüstü təsvirləri incəsənətdə"

## Beynəlxalq Abidələr və Tarixi Yerlər Günü münasibətilə sərgi



*əvvəli səh. 1-də*

Direktor daha sonra 2023-cü ilin ölkəmizdə "Heydər Əliyev İli" olduğuna diqqət çəkərək Ulu öndərin rəhbərliyi dövründə abidə və muzeylərə diqqət və qayğısından, eləcə də həmin dövrdə bu sahə üzrə qanunvericilik bazasının yaradılmasından söz açdı. Bildirildi ki, bu gün də Ulu öndərin layiqli davamçısı Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın abidələrə, tarixi-mədəni irsə göstərdikləri diqqət bütün dünya üçün bir nümunədir. "Vətən müharibəsində işğaldan azad olunmuş ərazilərdə mədəni irsə diqqət, Qarabağda tarix-mədəniyyət abidələrinin bərpası ilə böyük layihələrin həyata keçirilməsi bir vətəndaş kimi hamımızın üzərində böyük məsuliyyət yaradır", – deyən direktor Qarabağ və Şərqi Zəngəzurun zəngin irsinin dünyaya tanıdılmasının vacibliyini diqqətə çatdırdı.

Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin rəisi Səbinə Hacıyeva abidələrimizə diqqəti yönəldən belə bir tədbirə qoşulanlara təşəkkür etdi. O, Qobustan qayaüstü mədəniyyətinin təbliğinə diqqətin artırılmasının vacibliyini vurğuladı.

Millət vəkili, Naxçıvan MR Rəssamlar Birliyinin sədri Ülviyyə Həmzəyeva incəsənətin bütün sahələrinə göstərilən dövlət qayğısından danışdı. Naxçıvandakı Gəmiqaya abidəsinin Qobustanla adının yanaşı çəkilməsinin əhəmiyyətini qeyd edən deputat Qobustan təsvirlərinin hər zaman rəssamların ilham mənbəyi olduğunu bildirdi.

Sərginin əhəmiyyətini yüksək qiymətləndirən Xalq rəssamı Arif Hüseynov gələcəkdə "Qobustan Azərbaycan rəssamlarının gözü ilə" adlı kataloqun hazırlanması ideyasını irəli sürdü.

Əməkdar incəsənət xadimi, sənətşünas Ziyadxan Əliyev əksər yaradıcı insanların Qobustan mövzusuna müraciət etdiyini bildirdi, bu zəngin mədəni mirasın dünyada daha geniş təbliğinin vacibliyini vurğuladı.

Sonra qonaqlar sərgi ilə tanış oldular. Sərgidə yaradıcılığında Qobustan qayaüstü təsvirlərinin motivlərinə müraciət etmiş ölkəmizin 30 tanınmış və gənc rəssamının rəngkarlıq, heykəltəraşlıq, keramika, qrafika, batika, xalça, keçə, qobelen və dizayn üzrə 100-dən artıq əl işi nümayiş olunurdu.

**Lalə Azəri**

# "Ya Azərbaycan bayrağı altında yaşayacaqlar, ya da çıxıb gedəcəklər"

*əvvəli səh. 1-də*

Bu il Azərbaycanın dövlət büdcəsinin xərclərinin rekord səviyyəyə – ən azı 36 milyard manata çatacağını deyən İlham Əliyev bildirib ki, Qarabağda və Şərqi Zəngəzurda gedən işlərlə bağlı müntəzəm olaraq ictimaiyyətə məlumat verilir: "İnfrastruktur layihələrinin icrası, dəmir yolları, avtomobil yolları, elektrik enerjisi ilə bağlı olan təchizat, su təchizatı, meliorativ tədbirlərlə bağlı olan bütün layihələr plan üzrə gedir. İki hava limanı artıq fəaliyyətdədir, üçüncü hava limanının inşası davam edir. Mən bir müddət bundan əvvəl demişdim ki, biz keçmiş köçkünləri bu ilin sonuna qədər Laçın şəhərinə qaytaracağıq. Bax, bu gün tam əminliklə deyə bilərəm ki, biz yay aylarında artıq buna nail olacağıq. Yəni, biz bu işi vaxtından tez görürük və əgər birinci mərhələdə Laçın şəhərində 400-dən bir qədər çox evin inşasını nəzərdə tuturduqsa, son məlumata, son planlarımıza görə, ancaq fərdi evlərin sayı 570 olacaq. Eyni zamanda, 140-dan çox mənzil hazır olacaqdır. Yəni, beləliklə, 700-dən çox ailəni biz bu ilin yay aylarında Laçın şəhərində yerləşdirəcəyik. Eyni zamanda, qanunsuz olaraq məskunlaşma siyasəti aparılan Zabux və Sus kəndlərində işlər gedir. O kəndlərə də biz ilin sonuna qədər keçmiş köçkünləri qaytaracağıq".

Prezident qeyd edib ki, Şuşa şəhərində birinci yaşayış kompleksi inşa olunur: "İkinci böyük yaşayış kompleksinin, yəni bir çox evlərdən ibarət layihənin təməlini yaxın zamanlarda qoyacağıq. Ağdam, Füzuli, Zəngilan şəhərlərində yaşayış binalarının inşası plan üzrə gedir, Kəlbəcər və Cəbrayıl şəhərlərində isə buna hazırlıq işləri görülür. Bununla paralel olaraq məktəblər, xəstəxanalar, sosial obyektlər, məscidlər – 10-dan çox məscid yenidən tikilir və ya əsaslı şəkildə təmir edilir. Daha doğrusu, cəmi iki məscid təmir edilir. Çünki qalan məscidlərin hamısı ermənilər tərəfindən yerlə yeksan edilmişdir. Bax, quruculuq işlərimiz bu istiqamətdə aparılır və bir daha onu göstərir ki, bizim bütün planlarımız, bəyan etdiyimiz bütün məqsədlər həyatda öz əksini tapır və tapacaq".

Dövlət başçısı müsahibədə Ermənistanla sülh danışıqlarına da toxunub: "Bildiyiniz kimi, danışıqlarla bağlı, Azərbaycan tərəfindən irəli sürülmüş təşəbbüslər bu gün əsas amildir. Çünki işğala, erməni vəhşiliyinə, barbarlığına baxmayaraq, məhz Azərbaycan təklif etmişdir ki, Azərbaycanla Ermənistan arasında sülh müqaviləsi imzalansın və məhz Azərbaycan məlum beş prinsipi ortaya qoymuşdur. Bu prinsiplər beynəlxalq hüququn norma və prinsiplərinin təməl prinsipləridir. Biz bəri başdan bəyan etmişdik ki, məhz bu prinsiplər üzərində ölkələrin suverenliyi, ərazi bütövlüyü, sərhədlərin toxunulmazlığı və digər prinsiplər əsasında danışıqlar mümkündür və sülh müqaviləsi imzalana bilər.

Ermənistan tərəfinin mövqeyində son iki il ərzində müxtəlif ziqzaqlar olub, yəni müxtəlif dəyişikliklər olub. Nəticə etibarilə bizə belə gəlir ki, Ermənistan da prinsip etibarilə bizim yanaşma ilə razıdır. Çünki başqa variant da yoxdur. Məhz buna görə keçən ilin oktyabr ayında Praqa və Soçi görüşlərində Ermənistan Azərbaycanın ərazi bütövlüyünü, suverenliyini rəsmən qəbul edib. Yəni qəbul edib ki, Azərbaycan ilə Ermənistan arasında sərhədlər – 1991-ci ilin Almatı Bəyannaməsi (SSRİ-nin süqutundan sonra keçmiş müttəfiq respublikaların imzaladığı və MDB-nin əsaslarını müəyyən edən sənəd – red.) əsasında həll olunmalıdır. O da nəyi göstərir? O da göstərir ki, müttəfiq respublikalar arasında olan sərhədlər dövlət sərhədləri sayılır. Beləliklə, bax, bu rəsmi addımı atmaqla Ermənistan rəsmən Qarabağı Azərbaycanın ayrılmaz hissəsi kimi tanıyıb. Vaxtilə "Qarabağ Ermənistandır və nöqtə" deyən Ermənistan bu gün "Qarabağ Azərbaycandır və nida" sözlərimizi təkrar etməlidir. Çünki əgər "A" deyibsə "B" də deməlidir. Almatı Bəyannaməsini əsas götürüb bunun üzərində sülh müqaviləsinə hazır olduğunu göstərən Ermənistan artıq rəsmən bəyan etməlidir ki, Qarabağ Azərbaycandır".



## "Qarabağdakı erməni əhalisinin əksəriyyəti Azərbaycan vətəndaşlığını qəbul etməyə hazırdır"

Prezident daha sonra deyib: "Biz dəfələrlə bəyan etmişdik ki, daxili işlərimizi heç bir ölkə ilə müzakirə etməyəcəyik. Qarabağ bizim daxili işimizdir. Qarabağda yaşayan ermənilər ya Azərbaycan vətəndaşlığını qəbul etməlidirlər, ya da ki, özləri üçün başqa yaşayış yeri tapmalıdırlar. Burada tam sərbəstlik var, bütün demokratik əsaslar təklif olunur. Bu məsələ insan hüquqları əsasında öz həllini tapmalıdır. Bu gün bizim hərəkətlərimiz onu göstərir və niyyətimiz ondan ibarətdir ki, tezliklə sülh müqaviləsi imzalansın, Azərbaycanla Ermənistan arasında bu qarşıdurmaya son qoyulsun.

Onu da bildirməliyəm ki, İkinci Qarabağ müharibəsindən keçən iki il yarım ərzində Ermənistan, onun havadarları və eyni zamanda, ona dəstək verən ölkələr və qüvvələr bizim iradəmizi, qətiyyətimizi, gücümüzü əyani şəkildə görüblər. Mən indi sadalamaq istəmirəm, bu iki il yarım ərzində bir çox önəmli hadisələr baş vermişdir, həm Azərbaycan-Ermənistan dövlət sərhədi istiqamətində, eyni zamanda, Rusiyanın müvəqqəti qaydada yerləşdirilmiş sülhməramlı qüvvələrinin nəzarətində olan bölgədə. Biz dəfələrlə göstərmişik ki, bu torpaqların sahibləri bizik və heç kimə imkan vermərik ki, bizim ərazimizdə kimsə at oynatsın.

Separatçılar da bilməlidirlər ki, onların iki seçimi var: ya Azərbaycan bayrağı altında yaşayacaqlar, ya da ki, çıxıb gedəcəklər. Biz separatçıların əsas simalarından olan Serjik Sarkisyanı, Robert Koçaryanı, Seyran Ohanyanı Qarabağdan iti qovan kimi qovmuşuq, onları diz çökdürmüşük. Onlar İkinci Qarabağ müharibəsi zamanı Qarabağa gəlmişdilər, guya bizimlə vuruşmağa gəlmişdilər. Üçü də bizim torpağımızdan dovşan kimi qaçdı, indi heç biri heç burnunu da soxa bilmir nə Xankəndiyə, nə başqa bir yerə.




Hazırda özləri üçün qondarma adlar uyduran separatçılar, – biri özünü prezident adlandırır, biri özünü nazir adlandırır, biri nə bilim nə parlament sədri adlandırır, – bu təlxəklər toplusu, nəhayət, bilməlidir ki, bizim səbrimizlə oynamaq olmaz. Biz onlara müxtəlif yollarla dəfələrlə izah etməyə çalışmışıq ki, onlar ya bizim sözümüzlə oturub-duracaqlar, ya da ki, oradan rədd olacaqlar və orada yaşayan, onların faktiki olaraq girovuna, əsirinə çevrilmiş erməniləri də rahat buraxacaqlar. Mən əminəm ki, hazırda Qarabağda yaşayan erməni əhalisinin əksəriyyəti Azərbaycan vətəndaşlığını qəbul etməyə hazırdır. Sadəcə olaraq, bu zəlilər, bu yırtıcı heyvanlar, separatçılar qoymurlar. Qoymurlar ki, bu insanlar rahat yaşasınlar, 30 il bunları girov kimi saxlayıblar. Ona görə mənim mövqeyim bundan ibarətdir, bunu hər kəs eşitsin, həm Ermənistan rəhbərliyi, həm bu gün onların arxasında dayanan qüvvələr, bizim iradəmizə heç kim təsir edə bilməz. Biz bunu sübut etmişik, müharibə zamanı və müharibədən sonra. Lazım olarsa, bir də sübut edərik istənilən formada".

## "Bir gün Azərbaycan bayrağını öz başları üzərində görə bilərlər"

Prezident İlham Əliyev bir neçə gün əvvəl İrəvanda keçirilən ağır atletika üzrə Avropa çempionatının açılış mərasimində Azərbaycan bayrağının yandırılmasına da münasibət bildirib: "Hesab edirəm ki, bu, erməni hökumətinin növbəti çirkin əməlidir. Mən bunu belə qəbul edirəm. Bu, təsadüfən baş vermiş, hansısa bir fərdin əməli deyil. Bu, Ermənistan hökumətinin növbəti çirkin əməlidir... Ermənistanın siyasi rəhbərliyinin gözü önündə belə bir rəzil hadisə baş verir və buna heç bir reaksiya verilmir. Deməli, Ermənistan hakimiyyəti, hökuməti, dövləti bu çirkin əməlin müəllifidir. Amma onlar unutmamalıdırlar ki, bu gün Azərbaycan bayrağı harada dalğalanır. Bu gün Azərbaycan bayrağı Qarabağda dalğalanır. Ağdamda, Füzulidə, Cəbrayılda, Qubadlıda, Kəlbəcərdə, Laçında, Şuşada, Hadrutda, Talışda, Suqovuşanda və yüzlərlə kənddə dalğalanır. Bu gün Azərbaycan bayrağı Zəngəzur dağlarında dalğalanır, onu unutmasınlar. O bayrağa onlar yaxınlaşa bilər?... Bayraq yandırmaqla onlar ancaq öz çirkin xislətlərini bütün dünyaya nümayiş etdiriblər. Bir daha demək istəyirəm, bunun arxasında dayanan Ermənistan dövlətidir, Ermənistan hökumətidir, Ermənistanda aparılan, uzun illər aparılan, onilliklər ərzində aparılan anti-Azərbaycan kampaniyasıdır, azərbaycanofobiyadır. Bu hadisə sıradan olan hadisə deyil... Ancaq onlar yaxşı fikirləşsinlər. Bir gün gözlərini açıb Azərbaycan bayrağını öz başları üzərində görə bilərlər".

Prezident İrəvanda keçirilən çempionatda Türkiyədən olan qadın idmançıların öz qələbələrini Azərbaycana həsr etmələrini fəxarət hissi ilə qarşıladığını da deyib: "Mehriban xanım və mən əziz qızlarımız Cansu və Qəmzəni təbrik etdik. Birinci, ona görə ki, onlar Ermənistanda – həm Azərbaycana, həm də Türkiyəyə əzəli düşmən olan dövlətdə bu böyük qələbəni əldə etdilər, Türk bayrağını yüksəklərə qaldırdılar. Ermənilər bizim bayrağımızı yandırıblar, amma Türk bayrağı orada dalğalanıb. Türkiyənin Dövlət Himni elə səsləndi ki, orada oturan bütün düşmənlərin yəqin ki, qulağı batmışdı. Bu qələbəni onlar Azərbaycana, Azərbaycan xalqına həsr etdilər. Nə qədər gözəl bir hərəkətdir. Ona görə onlar bütün Azərbaycan xalqının sevgisini qazandılar. Mən onları bir daha təbrik etmək istəyirəm. Bu gün mən Neftçala Olimpiya Kompleksinin açılışında olarkən gənclər və idman nazirinə tapşırdım ki, bizim qızlarımızı mənim adımdan Azərbaycana dəvət etsin və onlar bizim qonağımız olsunlar. Bu, bir daha bizim birliyimizi göstərir, Türkiyə-Azərbaycan birliyi, qardaşlığı sarsılmazdır. Biz birik və onlara ünvanlanan təbrik məktubunda da yazmışıq ki, Türkiyə bayrağı olan yerdə biz də varıq və bütün Ermənistan onu gördü... Biz onlarla fəxr edirik və əslində bu hadisə, hesab edirəm ki, tarixdə qalacaq, təkcə idman tarixində yox, bütövlükdə dünya siyasət tarixində, Türk dünyasının tarixində. Türk dünyasının hər bir övladı, bax, Cansu və Qəmzə kimi olmalıdır. Mənim arzum budur".

***

Qeyd edək ki, aprelin 18-də Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Neftçala və Salyan rayonlarına səfər ediblər. Səfər zamanı Neftçala Olimpiya İdman Kompleksinin, yenidən qurulan Neftçala-Kürkənd-2 nömrəli Mayak avtomobil yolunun, Neftçalada Heydər Əliyev Fondu tərəfindən inşa olunan 420 şagird yerlik Bankə qəsəbə 2 saylı tam orta məktəbin açılışı keçirilib. Prezident və birinci xanım Neftçalanın Yenikənd kəndində "Azerbaijan Fish Farm" MMC-nin Nərə Damazlıq Təsərrüfatında yaradılan şəraitlə tanış olublar.

Dövlət başçısı "Azərişıq" ASC-nin Salyan Rəqəmsal İdarəetmə Mərkəzi və Salyanda "ASAN Xidmət" Mərkəzinin açılışını da edib. Prezident və birinci xanım Salyan Rayon Mərkəzi Xəstəxanasının 80 çarpayılıq Doğum Evində və Uşaq Poliklinikasında əsaslı təmirdən sonra yaradılan şəraitlə də tanış olublar.

# ICESCO Beynəlxalq Abidələr və Tarixi Yerlər Günündə müraciət yayıb

İslam Dünyası Təhsil, Elm və Mədəniyyət Təşkilatı (ICESCO) 18 aprel – Beynəlxalq Abidələr və Tarixi Yerlər Günü ərəfəsində təşkilata üzv ölkələrə müraciət edib.

Müraciətdə bu əlamətdar günün İslam aləmində də maddi və qeyri-maddi mədəni irsin əhəmiyyətini diqqətə çatdırmaq üçün bir fürsət olduğu vurğulanır. Qeyd edilir ki, ICESCO üzv dövlətlərdə bütün növ mədəni irsin təbliğinin vacibliyini vurğulayır və səylərin tarixi abidələrin və obyektlərin qorunmasına yönəldilməsinə çağırır. Təşkilat bu kontekstdə İslam Dünyası İrs Mərkəzinin yaradılması, üzv dövlətlərdə irs üzrə peşəkarların bacarıqlarının artırılmasına yönəlmiş çoxsaylı təlim sessiyalarının təşkili sahəsində mühüm layihələr həyata keçirib. 2019-cu ildən bəri ICESCO-nun İslam Dünyası İrsi Siyahısına 430-dan çox tarixi yer, görməli məkan və mədəni abidələr daxil edilib.

ICESCO bütün ölkələri, vətəndaş cəmiyyəti təşkilatlarını və özəl sektoru sıx əməkdaşlığa, xüsusən münaqişə bölgələrində İslam dünyasının sivilizasiya və mədəni irsinin qorunması üçün səyləri gücləndirməyə çağırır.

Təşkilat nəsildən-nəslə ötürülən ümumbəşər irsini təmsil edən qiymətli arxeoloji artefaktların qeyri-qanuni ticarətini cinayət hesab edən sərt qanun və qaydaların qəbul edilməsini zəruri hesab edir.

"ICESCO irs obyektlərinin və abidələrin qorunması və mühafizəsi üçün müasir texnologiya və süni intellektdən istifadənin vacibliyini vurğulayır. Təşkilat həmçinin tarixi yerlərin və abidələrin tanıdılması, onların bəşər sivilizasiyasında əhəmiyyəti haqqında məlumatlılığın artırılması məqsədi ilə interaktiv platformaların yaradılmasına çağırır", – deyə müraciətdə bildirilir.

# “Çin xalqı köhnə və yaxşı dostlarını heç vaxt unutmur”

## Ulu öndərin 100 illiyi münasibətilə Heydər Əliyev Fondunun xaricdə ilk mədəniyyət tədbiri Pekində keçirilib

*əvvəli səh. 1-də*

İki ölkə arasında münasibətlərin hazırkı vəziyyətinə toxunan Lin Sontien qarşılıqlı siyasi etimadın getdikcə möhkəmləndiyini, müxtəlif sahələrdə əməkdaşlığın dərinləşdiyini diqqətə çatdırıb, Azərbaycanın və Çinin dövlət başçıları İlham Əliyevin və Si Cinpinin strateji rəhbərliyi ilə son illər əlaqələrimizdə böyük sıçrayışın müşahidə olunduğunu deyib.

Mərasimdə çıxış edən Azərbaycan Respublikası Prezidentinin köməkçisi, Heydər Əliyev Fondunun icraçı direktoru Anar Ələkbərov Ümummilli liderin Azərbaycanı çətin vəziyyətdən çıxararaq inkişaf yoluna yönəltdiyini, müasir Azərbaycanın qurucusu olduğunu deyib.

Heydər Əliyev Fondunun “Heydər Əliyev İli” çərçivəsində ölkəmizdə və xaricdə bir sıra mədəni tədbirlər keçirəcəyini diqqətə çatdıran A.Ələkbərov ilk tədbirin Çində keçirilməsini iki xalq arasında dostluğun bariz nümunəsi olduğunu deyib. Qeyd edib ki, dahi siyasətçinin 1994-cü ildə Çinə səfəri ilə müasir dövrdə iki ölkə arasında münasibətlərin təməli qoyulub və bu siyasət hazırda Prezident İlham Əliyev tərəfindən davam etdirilir. A.Ələkbərov iki ölkə arasında müxtəlif sahələrdə davamlı inkişaf edən münasibətlərdən söz açıb, bu əlaqələrin dostluğa əsaslanan strateji tərəfdaşlıq münasibətləri olduğunu vurğulayıb.

Mərasim ziyafət və Azərbaycan incəsənət ustalarının ifasında maraqlı konsert proqramı ilə davam edib.

***

Qeyd edək ki, Çin Xalq Respublikasında səfərdə olan Azərbaycan Prezidentinin köməkçisi Anar Ələkbərovun rəhbərlik etdiyi nümayəndə heyətinin aprelin 17-də Pekində Şanxay Əməkdaşlıq Təşkilatının (ŞƏT) baş katibi Can Min ilə görüşü olub.





Azərbaycanın Şanxay Əməkdaşlıq Təşkilatının dialoq tərəfdaşı kimi fəal rolunu vurğulayan baş katib Can Min son dövrlər ölkəmizin təşkilat çərçivəsində keçirilən tədbirlərdə fəal iştirakını təqdir edib. ŞƏT-nin ötən ilin sentyabrında Səmərqənddə keçirilən Sammitində Azərbaycan Prezidenti İlham Əliyevin iştirakını xüsusi vurğulayan Can Min təşkilatla Azərbaycan arasında səmərəli əməkdaşlıqdan danışıb.

Anar Ələkbərov bildirib ki, Azərbaycan ŞƏT-nin dialoq tərəfdaşı statusunu aldıqdan sonra Heydər Əliyev Fondu təşkilatın katibliyi ilə sıx əməkdaşlıq edir, 2018-ci ildə Çində Azərbaycan mədəniyyəti günü, 2021-ci ildə “Nizami Gəncəvi İli” çərçivəsində “Nizami Gəncəvi – bütün bəşəriyyətin şairi” adlı tədbir keçirib. O, Heydər Əliyev Fondunun hədiyyəsi olan dahi şairin büstünün təşkilatın katibliyinin binasında qoyulmasını Azərbaycan üçün böyük rəmzi xarakter daşıdığını deyib.

A.Ələkbərov bildirib ki, Səmərqənd Sammitində Prezident İlham Əliyevin fəxri qonaq statusunda iştirakı Azərbaycanın ŞƏT ilə əməkdaşlığı daha yüksək səviyyəyə qaldırmasında maraqlı olduğunu göstərir. O, Azərbaycanın təşkilat yanında statusunun dialoq üzrə tərəfdaş səviyyəsindən müşahidəçi səviyyəsinə yüksəldilməsi ilə bağlı müvafiq müraciət ünvanladığını xatırladıb, Azərbaycanın ŞƏT yanında müşahidəçi statusu əldə etməsi ilə sözügedən təşkilatın fəaliyyətinə daha böyük töhfə verə biləcəyinə inamını ifadə edib.

Səfər çərçivəsində nümayəndə heyətinin Xarici Ölkələrlə Dostluq üzrə Çin Xalq Assosiasiyasının sədri Lin Sontien ilə görüşü də keçirilib. Lin Sontien rəhbərlik etdiyi assosiasiya ilə Heydər Əliyev Fondu arasında 2017-ci ildə imzalanmış memorandumun humanitar və mədəni sahədə əməkdaşlığın daha da dərinləşməsinə təkan verdiyini bildirib, gələcəkdə digər sahələrdə, o cümlədən iqtisadiyyat, turizm, gənclər, idman, media istiqamətlərində də əməkdaşlığın mümkünlüyünü vurğulayıb.

Anar Ələkbərov Heydər Əliyev Fondu ilə Xarici Ölkələrlə Dostluq üzrə Çin Xalq Assosiasiyasının əməkdaşlığının iki xalq arasında yaxın dostluq münasibətlərinə töhfələr verdiyini deyib. Gələcəkdə hər iki ölkə ərazisində keçirilən beynəlxalq tədbirlərdə qarşılıqlı iştirakın vacibliyi vurğulanıb.

# “Ömür bir dəfə yaşanır”

## Leyla Əliyevanın şeirlər kitabının Çin dilində nəşrinin təqdimatı

Aprelin 17-də Pekində “Ömür bir dəfə yaşanır” şeirlər kitabının Çin dilində nəşrinin təqdimatı olub. Nəşrin müəllifi Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevadır.

Təqdimat Heydər Əliyev Fondunun, Çin Xarici Dillər Nəşriyyatı Administrasiyasının və Azərbaycanın Çindəki Səfirliyinin birgə təşkilatçılığı ilə keçirilib.

Çin Xarici Dillər Nəşriyyatı Administrasiyası baş redaktorunun müavini xanım Çen Şiya bu nəşri iki ölkə arasında humanitar sahələrdə əməkdaşlığın gözəl nümunəsi kimi dəyərləndirib.

Azərbaycanın Çindəki səfiri Əkrəm Zeynallı mədəni-humanitar layihələrin xalqlarımızı bir-birinə daha da yaxınlaşdırdığını, gələcəkdə bu istiqamətdə yeni layihələrin həyata keçiriləcəyini bildirib.

Çin Yazıçılar Birliyi poeziya şurasının sədri, şair Cidi Macia bildirib ki, Leyla Əliyevanın poeziyası lirikdir, eyni zamanda dərin fəlsəfi məna daşıyır. Onun şeirlərini oxuyarkən müxtəlif dövrlərdə yaşamış şairlərin yaratdığı lirik ənənələrin müasir zamanımıza necə axıcı bir şəkildə süzülüb gəldiyinin şahidi oluruq.

Pekin Xarici Dillər Universitetinin Azərbaycan dili ixtisası üzrə məzunları Leyla Əliyevanın şeirlərini Çin dilində söyləyiblər.



Qeyd edək ki, Heydər Əliyev Fondu tərəfindən ilk dəfə azərbaycanlı müəllifin şeirlər kitabı Çin dilində nəşr edilib. Heydər Əliyev Fondunun icraçı direktoru Anar Ələkbərovun Çin Xarici Dillər Nəşriyyatı Administrasiyası baş redaktorunun müavini Çen Şiya ilə görüşündə gələcəkdə digər azərbaycanlı şair və yazıçıların əsərlərinin Çin dilinə tərcümə edilməsi ilə bağlı müzakirələr aparılıb.

# Anarın “Söz dünyası” çoxcildliyinin təqdimatı olub

## “Bu kitab, əslində, Azərbaycan ədəbiyyatının söz dünyasıdır”

*əvvəli səh. 1-də*

İ.Həbibbəyli bildirib ki, Anarın dram əsərləri də çox fərqlidir, onun ssenarist-dramaturq kimi də zəngin yaradıcılığı var.

Mədəniyyət Nazirliyi Kitab sənayesi şöbəsinin müdiri Akif Marifli qeyd edib ki, Anar kimi canlı klassiklərin qarşısında ancaq öz müasirləri söz deyə bilər. Anar hər yaşın yazıçısıdır. Mədəniyyət Nazirliyi onun yaradıcılığını diqqətdə saxlayır. Anarın çoxcildlik “Söz dünyası” kitabının nazirliyin dəstəyi ilə nəşr edilməsi də bu münasibətin ifadəsidir.

Milli Məclisin deputatı, Xalq şairi Sabir Rüstəmxanlı bildirib ki, “Söz dünyası” kitabında Anar öz yaradıcılıq dostları haqqında sözünü ədalətlə ifadə edib. Bu kitab, əslində, Azərbaycan ədəbiyyatının söz dünyasıdır. Anar həm də filosof, ədəbiyyatşünasdır, bu, böyük istedadın, zəhmətin göstəricisidir. S.Rüstəmxanlı Anar haqqında yazdığı şeiri də oxuyub.

Azərbaycanda Atatürk Mərkəzinin direktoru, Milli Məclisin deputatı, akademik Nizami Cəfərov bildirib ki, Anar ziyalı, intellektual yazıçıdır. O, xalqın milli-mənəvi dəyərlərini ədəbiyyatda müəyyənləşdirib. 80-ci illərin sonu – 90-cı illərin əvvəllərində bir sıra üzdəniraq “yazıçılar” Yazıçılar İttifaqını dağıtmaq istəyirdilər, o zaman Anar nüfuzundan istifadə edərək bu təşkilatı qoruyub saxladı.




AYB-nin birinci katibi Xalq yazıçısı Çingiz Abdullayev 35 ildir Anarla bir yerdə çalışmasından məmnunluğunu ifadə edib, ona cansağlığı arzulayıb.

Əməkdar elm xadimi, professor Qəzənfər Paşayev Anarın ictimai-ədəbi fəaliyyətini 35 ildir izlədiyini söyləyib: “O, həmişə məclislərin arzuolunan qonağı olub, Anarın ictimaiyyət arasında böyük hörməti var və onun yaradıcılığı çoxşaxəlidir. Anar beynəlxalq aləmə çıxan bir yazıçımızdır. Böyük ədəbiyyatşünas, ssenarist, rejissor və folklorşünasdır...”.

Xalq şairi Ramiz Rövşən Anarın 1967-ci ildə çap olunan “Ağ liman” romanının o zamanların ən oxunaqlı kitabı olduğunu söyləyib: “Bu, 60-cı illərin simvolu olan bir əsərdir. Anar əsri-əsrə, nəsli-nəslə calayan, ədəbiyyat üçün çox işlər görən yazıçıdır, bizim milli yaddaşımızın ən böyük bərpaçılarındandır”.

Çıxışlardan sonra Milli Kitabxananın əməkdaşları tərəfindən hazırlanan “Xalq yazıçısı Anar” adlı elektron məlumat bazası təqdim edilib.

Sonda Xalq yazıçısı Anar çıxış edərək Milli Kitabxananın rəhbərliyinə və çıxış edən hər kəsə dərin təşəkkürünü bildirib: “Biz əgər bu yaşa çatmışıqsa, deməli, bizim müəyyən bir missiyamız var. Biz dünyadan köçən dostlarımızın da yaradıcılığını yaşatmalıyıq və nə qədər ömrüm varsa, bu işi görməyə çalışacağam”.

Anar çıxışı zamanı Heydər Əliyevin onun yaradıcılığına göstərdiyi diqqət və qayğıdan da söz açaraq 100 illik yubileyi ərəfəsində Ulu öndərə Tanrıdan rəhmət dilədiyini bildirib.

# Bəstəkarlar iş başında...

Azərbaycan Bəstəkarlar İttifaqı (ABİ) Simfonik, səhnə və xor musiqisi bölməsinin iclası keçirilib.

ABİ-nin katibi Əməkdar incəsənət xadimi Cəlal Abbasov, bölmənin sədri, Xalq artisti Azər Dadaşov, bəstəkarlar – Xalq artisti Sərdar Fərəcov, Əməkdar incəsənət xadimi Məmmədağa Umudov, Rüfət Ramazanov, Mürsəl Arazbəyli (Gəbəybəyov) və musiqişünas Xanlar Novruzovun iştirakı ilə keçirilən iclas bir neçə əsərin müzakirəsinə həsr olunub.



Əvvəlcə Mürsəl Arazbəylinin simfonik orkestr üçün iki pyesi, Məmmədağa Umudovun fortepiano və zurna üçün yazdığı “Cümhuriyyət marşı” və Azər Dadaşovun Ümummilli lider Heydər Əliyevə həsr olunmuş “Vətən oğlu” simfoniyası ilkin variantda dinlənilib. İştirakçılar fikirlərini bildiriblər. M.Arazbəylinin və M.Umudovun müəllifi olduğu əsərlər üzərində qismən düzəliş və tamamlama işlərinə ehtiyac duyulduğu qeyd edilib.

İclasda müzakirə edilən musiqi nümunələrinə böyük səhnə ömrü və hər üç bəstəkara yeni uğurlar arzulanıb.

# Hiss və duyğular bəstəkarı

## Hacı Xanməmmədovun 105 illiyinə həsr olunan musiqi axşamı

Bu il görkəmli bəstəkar, Xalq artisti Hacı Xanməmmədovun (1918-2005) anadan olmasının 105 illiyidir. Aprelin 17-də Beynəlxalq Muğam Mərkəzində (BMM) bəstəkarın yaradıcılığına həsr olunan musiqi axşamı keçirildi.

BMM-in solistləri – gənc muğam ifaçıları bəstəkarın dillər əzbəri olan mahnılarını yeni nəfəsdə səsləndirdilər.

Hacı Xanməmmədov hiss və duyğular bəstəkarı kimi xarakterizə olunur. Onun peşəkar bəstəkar duyumu bütün mahnılarında hiss olunur. Yeni bir ahəng yaradan sənətkarın mahnılarında polifonik ritmlərdən məharətlə istifadə olunur. Bu da onun vaxtilə tar sənəti üzrə təhsil almasından irəli gəlir. Hacı Xanməmmədov mahnı yaradıcılığında Aşıq Ələsgər və Mikayıl Müşfiqin poeziyasına daha çox müraciət edib. Qəlbaçan, könül oxşayan mahnılarını vaxtilə korifey sənətkarlarımız Rəşid Behbudov, Şövkət Ələkbərova, Gülağa Məmmədov, Rübabə Muradova, Nəzakət Məmmədova və başqaları böyük şövqlə ifa ediblər.

Aşıq Ələsgərin sözlərinə “Telli”, “Güllü”, “Qadan alım”, “Ceyran”, “Getmə, amandı”, “Niyə döndü?”, M.Müşfiqin şeirlərinə “Yaşa, könül”, “Yadıma düşdü”, “Oxu, sevgilim”, “Sənin gözlərin”, “Qurban olduğum”, “Neyçün gəlmədin?”, “Arzuya bax, sevgilim” və s. mahnılar – ümumilikdə 100-dən çox nəğməsi hazırda tanınmış müğənnilərimizin repertuarında yer alır, dinləyicilərə xoş duyğular yaşadır.



Qeyd edək ki, Hacı Dadaş oğlu Xanməmmədov 15 iyun 1918-ci ildə Dərbənd şəhərində dünyaya göz açıb. Erkən çağlardan musiqiyə maraq göstərib. Bakıda təsadüf nəticəsində dahi bəstəkar Üzeyir Hacıbəyli ilə qarşılaşır. Bu görüş onun gələcək taleyini müəyyənləşdirir. Böyük musiqi xadiminin tövsiyəsi və himayəsi ilə Azərbaycan Dövlət Konservatoriyası nəzdində Orta İxtisas Musiqi Məktəbinin tar sinfinə daxil olur. Burada görkəmli bəstəkar Səid Rüstəmovdan dərs alır. Ü.Hacıbəylinin “Koroğlu” operası 1937-ci ildə Opera və Balet Teatrında tamaşaya qoyulanda bəstəkarın dəvəti ilə H.Xanməmmədov da simfonik orkestrdə solo tarda ifa edir.

Azərbaycan musiqi tarixində tar və simfonik orkestr üçün konsert, həmçinin kamança ilə simfonik orkestr üçün ilk konserti də H.Xanməmmədov yazıb.

Görkəmli sənətkar 1988-ci ildə “Xalq artisti” fəxri adına, 2000-ci ildə “Şöhrət” ordeninə layiq görülüb. Sənətə tarzən kimi gəlib musiqimizə sanballı əsərlər bəxş edən bəstəkar 7 aprel 2005-ci ildə vəfat edib.

**L.Azəri**

# “Mirzə Şəfi Vazehin Şərq lirikası Qərb musiqisində”

## Layihə musiqişünaslar və klassik musiqi həvəskarları tərəfindən rəğbətlə qarşılandı

Aprelin 15-də Beynəlxalq Muğam Mərkəzində “Mirzə Şəfi Vazehin Şərq lirikası Qərb musiqisində” adlı konsert proqramı təqdim olundu.



Konsertdə Əməkdar artist İlham Nəzərov (kontratenor) və pianoçu, beynəlxalq müsabiqələr laureatı Züleyxa Abdulla çıxış etdilər. Hüseynağa Aslanov isə Mirzə Şəfi Vazehin alman dilindən tərcümə olunmuş mətnlərini qiraət etdi.

Konsert proqramında görkəmli İsveçrə bəstəkarı Hans Huberin (1852-1921) 13 parçadan ibarət romans silsiləsi Bakıda ilk dəfə təqdim olundu. Vazehin şeirlərinə yazılmış bu silsilənin notları İsveçrədə 140 il əvvəl, 1882-ci ildə nəşr edilib, lakin ölkəmizdə ilk dəfə ifa edilirdi.

Layihə musiqişünaslar və klassik musiqi həvəskarları tərəfindən alqışlarla qarşılandı.

Konsert haqqında musiqişünas, Əməkdar incəsənət xadimi Zümrüd Dadaşzadə öz fikirlərini bölüşüb: “Vokal musiqidə iki şaxə var: Şubert yolu, Şuman yolu. Huber, məncə, Şuman yolu ilə addımlayır, yeni mətndən təkan alır. İlham Nəzərov düşünən musiqiçimiz kimi hər bir romansın sözlərinə, hətta xırda nüanslara belə vararaq bitkin miniatürlər ərsəyə gətirib. Züleyxa xanımla yaxşı bir tərəfdaş kimi parlaq çıxış etdilər. Kamera-vokal konsertlərin şəhərimizdə keçirilməsi ənənə şəklini alır. Bu da ifaçılarımızın xidmətidir. İnanıram ki, bizi hələ neçə-neçə maraqlı vokal musiqi nümunəsi ilə görüş gözləyir. Arzu edirəm ki, belə layihələrdə dinləyici qismində tələbələri daha çox görək...”.

**Lalə**

# "Nura çevrilən ömür"

Qazax rayon Heydər Əliyev Mərkəzi və rayon Gənclər və İdman İdarəsinin birgə təşkilatçılığı ilə görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın (1923-1985) anadan olmasının 100 illik yubileyinə həsr olunmuş "Nura çevrilən ömür" başlıqlı tədbir keçirilib. Çıxışlardan sonra oftalmoloq-alim haqqında film nümayiş etdirilib.



Göyçay rayon Heydər Əliyev Mərkəzində Zərifə Əliyevanın 100 illiyinə həsr edilmiş konfrans təşkil edilib. Çıxışlarda vurğulanıb ki, Zərifə Əliyevanın novator alim, qayğıkeş insan kimi yaşadığı mənalı ömrü, keçdiyi şərəfli həyat yolu hər bir alim və həkim üçün həyat və mənəviyyat dərsi, kamillik və müdriklik məktəbidir.

Astara rayon Heydər Əliyev Mərkəzində isə Zərifə Əliyevanın anım günü (15 aprel) ilə bağlı təşkil olunan tədbir keçirilib. Tədbirdə "Akademik Zərifə xanım Əliyevanın ömür yolu" adlı film nümayiş olunub. Sonda tədbir iştirakçıları rəsm və kitab sərgilərinə baxıblar.

Sabirabad rayon Heydər Əliyev Mərkəzində Zərifə Əliyevanın anım günü ilə əlaqədar "Zirvələrə yüksələn zərif insan ömrü" adlı sənədli film nümayiş olunub.

# Vətənin qəhrəmanları unudulmur

Şirvan Tarix-Diyarşünaslıq Muzeyində I Qarabağ müharibəsində itkin düşmüş həmyerlilərimizə həsr olunmuş "Qəlblərdə yaşayan qəhrəmanlar" adlı xatirə tədbiri keçirilib. Tədbirdə Şirvan şəhərinin itkinləri haqqında məlumatı özündə əks etdirən videoçarx nümayiş olunub, vətənpərvərlik mövzusunda şeir və mahnılar səsləndirilib.



Masallı Tarix-Diyarşünaslıq Muzeyi "Qəhrəmanları tanıyaq" layihəsi çərçivəsində Təzə Alvadı kənd 2 saylı tam orta məktəbində tədbir keçirib. Vətən müharibəsi qaziləri keçdikləri döyüş yolundan danışaraq xatirələrini bölüşüblər.

Sumqayıt RMİ və "Şəhid Analarına Dəstək" İctimai Birliyinin birgə təşkilatçılığı ilə Sumqayıt şəhər Poeziya evində Vətən müharibəsi şəhidi Səbuhi Həsənquliyevin anası Maisə Səbuhinin "Şəhidlik Tanrı hədiyyəsidir" kitabının təqdimatı olub. Kitabda müəllifin Azərbaycanın ərazi bütövlüyü uğrunda canlarını fəda edən şəhidlərə həsr etdiyi şeirləri yer alıb.

Bərdə rayon Mədəniyyət Mərkəzində Birinci Qarabağ müharibəsinin şəhid qardaşları Mahir və Tahir Cəfərovların anım günü ilə əlaqədar "Qayıdan torpaqlar, qayıtmayan oğullar" adlı tədbir təşkil edilib. Mədəniyyət Mərkəzinin nəzdində fəaliyyət göstərən Xalq teatrı "İki qardaşın döyüş yolu" adlı tamaşa nümayiş etdirib.



Gəncə şəhər MKS Mərkəzi Kitabxanasının Uşaq şöbəsi Səməd Vurğun adına 41 nömrəli tam orta məktəbdə Milli Qəhrəman Samir Xasıyevin (1973-1995) anadan olmasının 50 illiyi ilə əlaqədar "Vətənpərvərlik vətənə xidmətin ən ali zirvəsidir" başlığı altında tədbir təşkil edib.

Lerik Rayon İcra Hakimiyyətinin dəstəyi, rayon Mədəniyyət Mərkəzinin təşkilatçılığı ilə Azərbaycan Yazıçılar Birliyinin üzvü, yazıçı-publisist Etibar Muradxanlının Vətən müharibəsində şəhidlik zirvəsinə ucalan igidlərimizə və qazilərimizə həsr etdiyi "İlin beşinci fəsli" kitabının təqdimat mərasimi keçirilib.

# Mingəçevir Dövlət Dram Teatrı monotamaşalar festivalı keçirir

Mingəçevir Dövlət Dram Teatrı 55 illik yubileyini müxtəlif layihələrlə qeyd edir. Yubiley münasibətilə sənət ocağında "Bir teatr – bir festival" adlı monotamaşalar festivalı keçirilir.



Teatrın direktoru Əməkdar artist İntiqam Soltanın müəllif layihəsi olan festivalın ilk mərhələsi 15-16 aprel tarixlərində gerçəkləşib. Festivalın açılış mərasiminə şəhər sakinləri, eləcə də Lənkəran, Gəncə Dövlət Dram, Gəncə Dövlət Kukla teatrlarının təmsilçiləri, teatrşünas və yazarlar qatılıblar.

İntiqam Soltan teatrın tarixindən söz açıb, teatrsevərləri festival tamaşalarını izləməyə dəvət edib.

Şəhər İcra Hakimiyyətinin başçısı İlham İsmayılov, Bərdə Regional Mədəniyyət İdarəsinin rəisi vəzifəsini müvəqqəti icra edən Səxavət Məmmədov, Mingəçevir Dövlət Universitetinin rektoru Şahin Bayramov, "EL" televiziyasının direktoru İqbal Məmmədəliyev yubileylə bağlı kollektivi təbrik ediblər. Onlara kollektiv adından "Teatrın dostu" mükafatları təqdim edilib.

Mingəçevir Şəhər İcra Hakimiyyəti adından teatrın qocaman aktrisası, Xalq artisti Ella Yaqubova, baş rejissor Vüsal Mehraliyev və aktrisa Könül Ahəngarin fəxri fərmanlarla təltif olunublar.

Açılışın ardınca tamaşalar nümayiş olunub. İki gün ərzində teatrın artistləri müxtəlif tamaşalardan monoloqlar, eləcə də mono-oyun və kompozisiyalar təqdim ediblər.

Festivalın may-iyun aylarına nəzərdə tutulan ikinci mərhələsinə digər şəhər və rayonlardan da teatrlar cəlb olunacaq.

# "Xalqın qəlbindəki əbədi abidə"

## Bölgələrdə "Heydər Əliyev İli" tədbirləri davam edir





İmişli rayon Uşaq incəsənət məktəbi və YAP İmişli rayon təşkilatının birgə təşkilatçılığı ilə "Xalqın qəlbindəki əbədi abidə" adlı tədbir keçirilib. Tədbirdə müasir Azərbaycan dövlətinin banisi Ulu öndər Heydər Əliyevin həyat yolundan, Vətən qarşısında tarixi xidmətlərindən söz açılıb. Məktəbin müəllim və şagirdlərinin ifasında Heydər Əliyevə həsr olunan şeirlər və musiqilər səsləndirilib.

Ağcabədi rayon Heydər Əliyev Mərkəzi və rayon Tarix-Diyarşünaslıq Muzeyinin birgə təşkilatçılığı ilə "Heydər Əliyev və muzeylərimiz" adlı tədbir keçirilib. Bildirilib ki, Heydər Əliyevin 1993-cü ildə hakimiyyətə qayıdışından sonra, mədəniyyətin digər sahələri ilə yanaşı, muzey işi də yeni mərhələyə qədəm qoyub. Ulu öndərin təşəbbüsü ilə 1994-cü ildə Nazirlər Kabinetinin qəbul etdiyi "Respublikada muzey işinin vəziyyəti və onun yaxşılaşdırılması haqqında" qərarın bu istiqamətdə ilk mühüm addım olduğu vurğulanıb. Bədii hissədə Ağcabədi şəhər 8 saylı tam orta məktəbin şagirdləri tərəfindən şeir kompozisiyası təqdim edilib.





Ağdaş Dövlət Rəsm Qalereyasının təşkilatçılığı ilə "Heydər Əliyev İli" çərçivəsində "Mənim rəngli dünyam" adlı rəsm təlimi keçirilib.

Bərdə Regional Mədəniyyət İdarəsinin (RMİ) əhatə etdiyi rayon və şəhərlərdə Ulu öndərin 100 illiyi münasibətilə "Heydər Əliyev və mədəniyyətimiz" adlı bilik yarışması keçirilir. Bərdə, Tərtər, Yevlax və Mingəçevirin tam orta məktəbləri şagirdlərinin iştirak etdiyi bilik yarışı Bərdə RMİ, Qarabağ və Mərkəzi Aran Regional Təhsil idarələrinin birgə təşkilatçılığı ilə gerçəkləşir.

Şəki şəhər 4 nömrəli Musiqi məktəbində "Heydər Əliyev və Azərbaycanda milli intibah dövrü" adlı seminar keçirilib. Çıxış edənlər Ulu öndərin həyatı və siyasi fəaliyyətindən, bugünkü inkişafımızın möhkəm təməllərini qoymasından danışıblar.

Qəbələ Rayon Tarix-Diyarşünaslıq Muzeyinin təşkilatçılığı ilə "Heydər Əliyev və gender siyasəti" adlı tədbir keçirilib. Çıxışlarda Heydər Əliyevin hüquqi dövlət quruculuğu, insan hüquqlarının qorunması və gender bərabərliyi üçün bazanın yaradılması istiqamətində həyata keçirdiyi dövlət siyasəti haqqında məlumat verilib.

Göygöl rayon Mədəniyyət Mərkəzində keçirilən seminarda vurğulanıb ki, Heydər Əliyev mədəniyyətimizə, incəsənətimizə, milli-mənəvi dəyərlərimizə daim böyük hörmət və ehtiram göstərib, mədəniyyət, elm və incəsənət xadimlərinə diqqət və qayğı ilə yanaşıb. Sonda Ulu öndər haqqında videoçarx nümayiş olunub.

Salyan rayon Heydər Əliyev Mərkəzi və rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə "Heydər Əliyev Azərbaycanda ordu quruculuğunun banisidir" mövzusunda tədbir keçirilib.

Şirvan şəhər MKS-nin 4 saylı kitabxana filialının əməkdaşları tərəfindən Hacı Zeynalabdin Tağıyev adına parkda "Heydər Əliyev və kitabxana işi" adlı kitab sərgisi təşkil edilib. Sərgidə Heydər Əliyevin həyat və siyasi fəaliyyətindən bəhs edən kitablar nümayiş etdirilib.

Masallıda Ümummilli lider Heydər Əliyevin 100 illiyi münasibətilə Üzeyir Hacıbəylinin "Arşın mal alan" tamaşası nümayiş etdirilib. Masallı şəhər İncəsənət məktəbinin səhnəsində təqdim olunan tamaşaya quruluş verən Gündüz Babayev, musiqi tərtibatçısı Rəşad Tağıyevdir.

Tovuz rayon Heydər Əliyev Mərkəzində "Heydər Əliyev – dahi qurucu" adlı tədbir keçirilib. Tədbirdə Azərbaycan Aşıq Sənəti Dövlət Muzeyinin işçiləri, rayon Heydər Əliyev Mərkəzinin əməkdaşları və A.S.Puşkin adına tam orta məktəbin müəllim və şagirdləri iştirak ediblər.

Milli Məclisin Mədəniyyət komitəsi, Sumqayıt RMİ, şəhər İcra Hakimiyyəti və "Nəfəs" İctimai Birliyinin birgə təşkilatçılığı ilə Sumqayıt şəhər bulvarında ağacəkmə aksiyası təşkil olunub. Aksiyada 500 zeytun fidanı əkilib.

Goranboy rayon Heydər Əliyev Mərkəzində "Xalqını, millətini sevən, Vətəni üçün yaşayan və yaradan lider" mövzusunda rayonun Zeyvə kənd Seymur Məmmədov adına tam orta məktəbin VIII və X sinif şagirdləri üçün açıq dərs keçirilib.

**Hazırladı: N.Məmmədli**

# Beynəlxalq Abidələr və Tarixi Yerlər Günü münasibətilə

18 aprel – Beynəlxalq Abidələr və Tarixi Yerlər Günü münasibətilə Qax şəhərində "Bu diyarın hər daşı, hər guşəsi bir tarixdir" adlı regional tədbir keçirilib. Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidməti Qəbələ Regional İdarəsinin təşkilatçılığı, Qax Rayon İcra Hakimiyyətinin dəstəyi ilə keçirilən tədbirdə regional idarənin xidməti ərazisinə daxil olan rayonların aidiyyəti qurumlarının nümayəndələri iştirak ediblər.





İcra Hakimiyyəti başçısının müavini Vəfa Heydərova əlamətdar günün tarixi haqqında danışaraq deyib ki, məqsəd insanların diqqətini abidələrin və tarixi yerlərin qorunmasına yönəltməkdir.

Dövlət Xidməti Qəbələ Regional İdarəsinin rəisi Tərxan Tahirli qeyd edib ki, tarix və mədəniyyət abidələri xalqımızın minilliklər boyu bu torpaqlarda yaşadığını sübut edən, maddi və mənəvi həyatımızın, tariximizin daşlaşmış yadigarıdır. Bildirilib ki, iki ildən artıqdır fəaliyyət göstərən regional idarə tərəfindən bölgədə yerləşən 1000-dən çox tarix-mədəniyyət abidəsində monitorinq aparılıb.

Çıxışlardan sonra "Abidələr xalqı, xalq abidələri yaşadır" adlı videoçarx nümayiş olunub. Tədbir Qax rayonu ərazisində yerləşən tarixi abidələrə ekskursiya ilə davam edib.

***

Şəki Dövlət Rəsm Qalereyasında "Tarixi abidələr rəssamların gözü ilə" adlı sərgi açılıb. Sərgidə yerli rəssamlardan Aynur Məsimova, Zaur Əhmədov, Asim Abbasov və Elxan Kərimovun qrafika əsərləri, kətan üzərində yağlı boya, daş və taxta üzərində rəsmləri, təkəlduz ustası Günel Paşayevanın əl işləri nümayiş olunur.

Rəssamlar İttifaqı Şəki təşkilatının sədri Tahir Həmidli və Uşaq incəsənət məktəbi Rəssamlıq şöbəsinin müdiri Səbuhi Məmmədov sərgi haqqında təəssüratlarını bölüşüb və gənc rəssamlara tövsiyələrini veriblər.

Sərginin təşkilində məqsəd Şəkinin tarixi məkanlarını və abidələrini təbliğ etməkdir.

# İşğaldan azad olunmuş ərazilərin investisiya cəlbediciliyi

## Elmi-praktik konfrans

Aprelin 17-də İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti Tədris Mərkəzinin Şamaxı rayonunda yerləşən kompleksində "İşğaldan azad olunmuş ərazilərin investisiya cəlbediciliyi" mövzusunda elmi-praktik konfrans keçirilib.

Tədbirin açılışında Elm və Təhsil Nazirliyi İqtisadiyyat İnstitutunun baş direktoru Nazim Müzəffərli, iqtisadiyyat nazirinin müavini Sahib Ələkbərov və Şamaxı Rayon İcra Hakimiyyətinin başçısı Tahir Məmmədov çıxış ediblər.

Sahib Ələkbərov çıxışında diqqətə çatdırıb ki, 2023-cü ilin dövlət büdcəsindən işğaldan azad olunan ərazilərdə abadlıq və bərpa işlərinin davam etdirilməsi üçün 3 milyard manat vəsait ayrılıb. Son 2 ildə büdcədən ayrılan manat vəsait hesabına Ağdam, Füzuli və Laçın rayonlarında yollar və körpülər salınıb, su anbarları və su elektrik stansiyaları tikilir. Tərtərçayın kanallarında təmizləmə işləri davam edir. Cəbrayılda günəş elektrik stansiyasının tikintisi üçün hazırlıq işləri görülür. Yaxın zamanda Qarabağ və Şərqi Zəngəzurda geniş sahələri təmiz içməli su ilə təmin edəcək Həkəri su anbarının və müvafiq su kəmərlərinin tikintisinə başlamaq planlaşdırılır.

Konfrans sessiyalarla davam edib.

İlk sessiyada Azərbaycan Respublikası Prezidentinin Qarabağ iqtisadi rayonundakı işğaldan azad edilmiş ərazilərdə xüsusi nümayəndəsi Emin Hüseynov "Qarabağ iqtisadi rayonuna daxil olan ərazilərdə görülən işlər və investisiya imkanları", Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Rövşən Rzayev "İşğaldan azad edilmiş ərazilərdə məskunlaşacaq məcburi köçkünlərin məşğulluq məsələləri", İqtisadiyyat Nazirliyinin şöbə müdiri Zamin Bədirxanlı "İşğaldan azad edilmiş ərazilərdə yaradılmış əlverişli biznes və investisiya mühiti", KOBİA-nın sədri Orxan Məmmədov "İşğaldan azad edilmiş ərazilərdə kiçik və orta biznesə dövlət dəstəyi imkanları" mövzularında ə çıxış ediblər.

İkinci sessiyada "Qarabağ və Şərqi Zəngəzurda əsas kapitala investisiyalar: yeni regional statistik mənzərənin astanasında", "İşğaldan azad edilmiş ərazilərdə sahibkarlıq subyektlərinə maliyyə dəstəyi", "İşğaldan azad edilmiş ərazilərdə sənayenin inkişaf imkanları", "İnvestisiyalar haqqında müasir elmi konsepsiyalar və postkonflikt ərazilərin bərpası problemi" mövzusunda məruzələr dinlənilib.

Məruzələr ətrafında müzakirələr aparılıb, fikir və təkliflər səsləndirilib.

# "Yaşayan ölü"

Lənkəran Dövlət Dram Teatrında Könül Məmmədovanın "Yaşayan ölü" pyesi əsasında hazırlanmış eyniadlı tamaşanın premyerası olub.



Səhnə əsərində iki qohum ailənin faciəsi timsalında narkomaniyanın cəmiyyətdə, ayrı-ayrı ailələrdə törətdiyi bəlalardan bəhs olunur. Narkomaniyaya aludə olan Xalidə dünyaya şikəst gətirdiyi oğlundan – Nahiddən hələ onun körpəliyi zamanı imtina edib. İkinci oğlu Orxan isə məhz Xalidənin etinasızlığı və laqeydliyi ucbatından narkomaniyaya qurşanaraq acınacaqlı həyat tərzi keçirir. Son nəticədə o, anlaqsız hərəkətləri ilə əmisi qızı Nərgizi bədbəxt edir.

Maraqla izlənilən tamaşanın quruluşçu rejissoru Anar Babalı, quruluşçu rəssamı Tərlan Sadıqov, musiqi tərtibatçısı Miranda Qurbanovadır. Rollar Miraslan Ağayev, Təranə Fərəcova, Emil Rzayev, Saleh Əzimzadə, Qızılgül Quliyeva, Rauf Zeynalov, Aysel Babazadə və Şəbnəm Hüseynova ifa ediblər.

### İlk Prezident təqaüdçüləri

# Lap dünən kimi...

Rubrikamız üçün növbəti həmsöhbətimi seçdim: milli rəqslərimizin mahir ifaçısı, Xalq artisti Roza Cəlilova.

Uzun və mənalı ömür yaşayıb, bütün yaradıcılığı boyunca xalqın bu zərif və qədim sənət növünü daha da inkişaf etdirməyə çalışan rəqqasə yaşının bu çağında da yenə həyat doludur. Şən-şaqraq avazı, nikbin danışığı və rəqqasələrə xas çevikliyi ilə heyranlıq yaradır.

İlləri yola saldıqca hər günündən bir xatirə, qeyd saxlayan Roza xanımla bu dəfə xalqımızın Ümummilli lideri, milli mədəniyyətimizin hamisi və təəssübkeşi olmuş Heydər Əliyevi xatırladıq.

Ünsiyyəti sevən, insanlarla danışmaqdan zövq alan bu həyatsevər xanım söhbətə Heydər Əliyevin dərin mədəniyyət bilicisi olmasından başladı: “Dövlət tədbirlərində, müxtəlif konsertlərdə dəfələrlə iştirak etmişəm. Ölkəmizə rəhbərliyinin hər iki dövründə Heydər Əliyev biz sənət adamlarına sevgi ilə yanaşıb, xüsusi diqqət və qayğı göstərib. Onun izləməyə gəldiyi konsertlərdə hər kəs bir başqa ovqata köklənirdi. Təkcə ona görə yox ki, o, rəhbər şəxsdir, həm də ona görə ki, hər kəs onun necə dərin sənət bilgilərinə malik olduğundan xəbərdar idi. Təsəvvür edin, rəqslər, onların elementləri, ifa texnikaları, yaranma tarixləri, mənaları barəsində elə fikirlər səsləndirirdi ki, heyran qalmamaq olmurdu. Bir də bilirsiniz ən çox nə xoşuma gəlirdi? Böyük ansamblın içərisindən fərdi olaraq rəqqasları izləməsi, onlara ayrı-ayrılıqda tamaşa etdiyini büruzə verməsi. Bunun ansamblda ifa edən kollektiv üzvü üçün nə qədər önəmli olduğunu təsəvvür belə edə bilməzsiniz. Baxın, hər hansı müğənni, aktyor ayrılıqda öz ifası, obrazı üzərindən özünü göstərə bilir. Amma rəqsdə, xorda, ümumilikdə kollektiv çıxışlarda bu elə də asan olmur. Yəqin elə buna görə də Heydər Əliyev təkcə Rozanı, Əminəni və ya başqa nisbətən tanınan, seçilən rəqqası yox, bütünlükdə hər bir ansambl üzvünü diqqətdə saxlayırdı”.

Roza xanım Naxçıvanda çalışdığı illəri də yada saldı: “Bildiyiniz kimi, mən bir müddət M.Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasının Mahnı və Rəqs Ansamblının Naxçıvan üzrə kuratoru olmuşam. Məşhur “Şərur yallısı” ansamblı üçün bir neçə rəqs qurmuşam, onlarla xarici ölkədə qastrollarda



olmuşam. Heç yadımdan çıxmaz, 1991-ci ilin ağır dönəmi idi. Bizim ansamblın da Türkiyə Cümhuriyyətinə səfəri var idi. Dəvət bizi sevindirsə də, ora gedib çıxmaq müşkül idi. Bilet, nəzarət-buraxılış məsələsi, üstəlik də yol xərcləri. Bu ağır vəziyyətdə o qədər vacib işlərinin içərisində Heydər Əliyev bizə də vaxt ayırdı. Belə ki, çıxılmaz vəziyyətdən çıxış yolu kimi ona üz tutduq. Təbii ki, Heydər Əliyev bizim səfər məsələmizi qısa müddətdə həll etdirdi. Kollektiv də gedib o festivalda Naxçıvanı uğurla təmsil etdi. Bu fakt da onun incəsənətə sevgi və diqqətinin bariz nümunəsidir.

Bu qayğı sonralar da davam etdi. Kollektiv 1997-ci ildə Türkiyənin İsgəndərun şəhərində folklor bayramında, 1998-ci ildə Bayburt şəhərində keçirilən “Dədə Qorqud” festivalında da yüksək mükafata layiq görüldü.

Yadımdadır, o, biz sənət adamları ilə hər görüşündə “İncəsənət, rəqs bizim irsimizdir və onsuz həyat yoxdur”, – deyirdi. Haqlı idi. Özü də o, bunları sadəcə söz xətrinə demir, əməlində də sübut edirdi. Bu da biz sənət adamlarına, şəxsən mənə çox xoş gəlirdi. İnanın, çox az dövlət xadimi var ki, onun ən ümdə amalı həm də mədəniyyətin, incəsənətin inkişafı olsun. Heydər Əliyev bu mənada da dərin zəka sahibi idi. O, yaxşı bilirdi ki, hər bir xalqın milli xüsusiyyətinin nümayişində, dünya miqyasında tanınmasında mədəniyyət faktoru mühüm rol oynayır. O, hələ sovet Azərbaycanına rəhbərliyi zamanında da bu fikirləri cəsarətlə deyir, xalqın sənət incilərini yaşatmaq üçün əlindən gələni edirdi. Mən ondakı cəsarəti, sənət adamlarına, bütövlükdə xalqına olan məhəbbəti heç kimdə görməmişəm”.

Müsahibim ölkəmizin 90-cı illərin təlatümlü dövrünü, müharibənin ağır yükünü, işğal faktını, iqtisadi çətinlikləri, yeni-yeni dirçəlməyə çalışan müstəqil Azərbaycanı yada saldı: “Heydər Əliyev bu qədər çətinlikləri dəf edərək ölkəmizi, mədəniyyətimizi necə böyük inkişaf yoluna gətirib çıxardı. Bunun səbəbi özünəinam və xalqına sevgisi idi. Onun gəlişi biz sənət adamlarına da yeni ruh verdi. Çətin şəraitdə, az qala məhv olmaq təhlükəsi yaşayan ayrı-ayrı yaradıcılıq istiqamətlərinə, onların təmsilçilərinə köməyini əsirgəmədi. Sənət adamlarına fəxri adlar, təqaüdlər, evlər, mükafatlar verdi. Bununla göstərdi ki, xalqın mədəniyyətini yaşadanlar xalqa da, dövlətimizə də lazımdı. Bu da bizlərə həyat eşqi verdi, işləmək əzmimizi artırdı. Bu diqqətdən mən də nəsibimi aldım. Onun 2002-ci il 11 iyun tarixli sərəncamı ilə Prezidentin fərdi təqaüdünə layiq görülən ilk 149 nəfərdən biri də mən oldum. Şükür, indi 94 yaşa çatmışam. O illəri lap dünən kimi xatırlayıram və hər dəfə də belə sevinirəm. Həmin anlar mənim ömrümün ən gözəl çağlarından qalanlardır, axı”.

Həmsöhbətim Heydər Əliyevin rəqs və balet sənətinə diqqətinə də toxundu. Bildirdi ki, Heydər Əliyev bu spesifik incəsənət növündə milli ifaçıların daha çox olmasını istəyirdi və hər dəfə səhnədə azərbaycanlı balet artistlərinin parlaq ifasını görəndə sevinirdi. Eyni zamanda milli rəqs sənətinin inkişafına, bu sahədə peşəkar tədrisə xüsusi qayğı göstərirdi. Heydər Əliyevin təşəbbüsü ilə 80-ci illərin ortalarında Bakı Xoreoqrafiya Məktəbi üçün xüsusi layihə üzrə bina inşa edilməsi də bunun bariz nümunəsi idi.

Roza xanım daha sonra deyir: “Hər dövlət konsertindən sonra səhnə arxasına keçib incəsənət ustalarını təbrik etməsi bizim üçün əsl bayram idi. Çalışırdıq ki, Heydər Əliyev olan konsertdə bir dənə də nöqsan olmasın. Çünki o, bizim üçün dövlət başçısı olmaqla yanaşı, çox yüksək zövqlü, diqqətli tamaşaçı idi...”.

**Həmidə**

# “Sevənlərindir dünya”

## Musiqili Teatrda yeni tamaşa hazırlanır

Azərbaycan Dövlət Akademik Musiqili Teatrında yazıçı-dramaturq Əmir Pəhləvanın “Sevənlərindir dünya” əsəri əsasında eyniadlı tamaşanın məşqləri gedir.



Süjet xəttində real sevgi hekayəsi dayanan müasir məişət komediyasına rejissor Elməddin Dadaşov quruluş verir. Tamaşada özbək (Müyəssər) və azərbaycanlı (Şərif) iki gəncin sevgi hekayəsindən bəhs olunur.

Səhnə əsərinin baletmeysteri Kamilə Əliyeva, səhnə tərtibatı və geyim üzrə quruluşçu rəssamı Sənan Fətullazadə, musiqi tərtibatçısı Məhəmməd Məmmədov, rejissor assistenti Tamilla Aslanovadır.

Tamaşada Əməkdar artistlər Nadir Xasiyev, İqrar Salamov, aktyorlar Əliməmməd Novruzov, Elçin İmanov, Güldanə Əzimova, Gülnarə Əzizova, Rəsmiyyə Nurməmmədova, Emin Zeynallı, Ayan Qurbanova, Nəzrin İsmayılzadə, Ruslan Mürsəlov, Telnaz Hüseynova, Ofeliya Məmmədova, Nərmin Əliyeva, Murad Əliyev, Cəbrayıl Cəbrayılov, Cəlal İsayev iştirak edəcəklər.

# Sənədli kino salnaməsinə baxış davam edir

## Növbəti tədbirdə kinorejissor Musa Bağırovun xatirəsi anılıb

Dövlət Film Fondunun Azərbaycan kinosunun 125 illiyi və “Azərbaycanfilm” kinostudiyasının 100 illiyi münasibətilə həyata keçirdiyi “Azərbaycanın sənədli kino salnaməsi” adlı layihə davam edir. Aprelin 14-də təşkil olunan növbəti retrospektiv baxış Əməkdar incəsənət xadimi, kinorejissor Musa Bağırovun yaradıcılığına həsr olunub.




Fondun direktoru Əməkdar incəsənət xadimi Cəmil Quliyev tədbiri açaraq Musa Bağırovun yaradıcılığından və onun Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində pedaqoq kimi xidmətlərindən danışıb. Cəmil Quliyev kinorejissorın 1981-ci ildə lentə aldığı “Belə bir kənd var” sənədli filminin qəhrəmanı, Ağdamın Xındırıstan kəndinin inkişafında böyük xidmətləri olmuş İldırım Cəfərovun fəaliyyətindən də söz açıb.

Sonra Musa Bağırovun “Belə bir kənd var” və “Divlər sarayı” sənədli filmləri nümayiş olunub.

Nümayişdən sonra rejissor Musa Bağırovun ailə üzvləri adından Ziya Seyidbəyli, həmçinin İldırım Cəfərovun ailə üzvləri adından Bəhram Şükürov və Aybəniz Cəfərova çıxış edərək filmin çəkiliş qrupuna və nümayişin təşkilatçılarına təşəkkürlərini bildiriblər.

# İrəvan Dövlət Azərbaycan Dram Teatrı Türkiyəyə qastrola hazırlaşır

2007-ci ildən etibarən Türkiyənin müxtəlif şəhərlərində dəfələrlə tamaşalar göstərən C.Cabbarlı adına İrəvan Dövlət Azərbaycan Dram Teatrı qardaş ölkəyə növbəti səfərə hazırlaşır. Bu barədə teatrın direktoru Əməkdar mədəniyyət işçisi İftixar Piriyev məlumat verib.

İyunun 12-də başlayacaq səfər Azərbaycan Mədəniyyət Nazirliyi və Türkiyə Anadolu Aydınlar Ocağının birgə dəstəyi ilə reallaşacaq.

Direktorun bildirdiyinə görə, kollektiv 17 gün müddətində Türkiyənin şəhərlərində, o cümlədən zəlzələdən ziyan çəkmiş Hatay şəhərinin sakinləri qarşısında “Mustafa Kamal Atatürk və Heydər Əliyev zirvəsi” devizi altında D.Çizməli və P.Çələbioğlunun “Cümhuriyyətin ilk sədası” tamaşası ilə çıxış edəcək.

“Azərbaycanla Türkiyəni bir-birinə bağlayan ulu qüvvə onları hər daim bir bədəndə iki can kimi yaşadacaq. Biz də belə mühüm tədbirlərlə Azərbaycanla Türkiyənin birliyini, bərabərliyini ən mötəbər salonlardan “Bir bədəndə iki can – Türkiyə-Azərbaycan” nidası ilə daim səsləndirməkdəyik”, – deyə İftixar Piriyev bildirib.

# BXA-da Ömər Faiq Nemanzadəyə həsr olunmuş dəyirmi masa

Bakı Xoreoqrafiya Akademiyasında (BXA) görkəmli publisist, naşir, pedaqoq, ictimai-siyasi xadim Ömər Faiq Nemanzadənin (1872-1937) 150 illik yubileyinə həsr olunmuş dəyirmi masa keçirilib.



Tədbirdə BXA-nın müəllimləri, Milli Azərbaycan Tarixi Muzeyi, AMEA N.Gəncəvi adına Ədəbiyyat İnstitutu, Bakı Dövlət Universiteti, Azərbaycan Dillər Universiteti, N.Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyi və Azərbaycan Milli Kitabxanasının əməkdaşları, eləcə də Ö.F.Nemanzadənin qardaşı nəvəsi Çingiz Nemanzadə iştirak ediblər.

“Ömər Faiq Nemanzadə irsi Milli Azərbaycan Tarixi Muzeyinin kolleksiyasında”, “Ö.F.Nemanzadənin publisistikasında milli məsələlər”, “Ö.F.Nemanzadə və “Molla Nəsrəddin” jurnalı”, “Ö.F.Nemanzadənin publisistik fəaliyyətində (“Qardaş köməyi” dərgisi əsasında) türkçülük ideologiyası”, “Ö.F.Nemanzadənin pedaqoji fəaliyyəti”, “Ö.F.Nemanzadənin yaradıcılığında ana dili məsələləri” mövzularında məruzələr dinlənilib.

Milli Azərbaycan Tarixi Muzeyinin kolleksiyası əsasında hazırlanmış Ö.F.Nemanzadənin şəxsi, ailəvi, dost, həmkar və tələbələri ilə çəkilmiş fotoalbomunun təqdimatı olub.

### “Heydər Əliyev İli”

# Mədəniyyətimizin böyük hamisi



Ümummilli lider Heydər Əliyev böyük siyasətdə olduğu bir qərinədən artıq dövrdə, doğma xalqının taleyində tarixi rol oynamaqla bərabər, mədəni irsimizin qorunması və zənginləşdirilməsi, milli incəsənətin, ədəbiyyatın inkişafı, respublikada mədəni-maarif işinin qabaqcıl səviyyədə təşkili sahəsində də müstəsna xidmətlər göstərib.

Heydər Əliyevin mədəniyyətə diqqət və qayğısı onun dövlət xadimi kimi fəaliyyətinin bütün mərhələlərində – sovet Azərbaycanına rəhbərlik etdiyi illərdə, Moskvada, SSRİ rəhbərliyində çalışdığı vaxtda və müstəqil Azərbaycana onillik prezidentliyi dövründə tarixin yaddaşına çoxsaylı səhifələrlə yazılıb. O, hər zaman və hər yerdə Azərbaycan mədəniyyətinin böyük hamisi olub. Bunula bağlı illərin xronikasından seçdiyimiz məqamları “Heydər Əliyev İli”nə töhfə olaraq diqqətinizə təqdim edirik...

## İllərin xronikasından (26)

### 1981-ci il 8 iyul

Heydər Əliyev Bakı şəhərində Kitab Evinin açılış mərasimində iştirak edib.

### 1981-ci il 21 iyul

Heydər Əliyevin rəhbərlik etdiyi Azərbaycan KP MK Hüseyn Cavidin 100 illiyi haqqında qərar qəbul edib.

Qərarda Azərbaycan ədəbiyyatında ilk mənzum fəlsəfi dramların müəllifi, görkəmli şair Hüseyn Cavidin milli ədəbiyyatın və teatr sənətinin inkişafında böyük xidmətləri vurğulanırdı: “Hüseyn Cavid obrazları səhnə mədəniyyəti xadimlərinin bütöv bir nəsli üçün məktəb olmuşdur. Hüseyn Cavidin incə lirizm və dərin psixologizmlə, humanizm və beynəlmiləlçiliklə aşılanmış əsərləri Azərbaycan ədəbiyyatının qızıl funduna daxil olmuşdur. Onun şeirləri və poemaları Bakıda və Moskvada nəşr edilmiş, pyesləri təkcə Bakı teatrlarında deyil, həm də Tbilisi və Daşkənd, Səmərqənd və Aşqabad teatrlarında, ölkənin başqa şəhərlərinin teatrlarında tamaşaya qoyulmuş, qardaş sovet xalqlarının dramaturgiyasının və teatr sənətinin inkişafına səmərəli təsir göstərmişdir”.

Qərarda qeyd edilirdi ki, respublikada Hüseyn Cavidin ədəbi irsini öyrənmək və xatirəsini əbədiləşdirmək üçün müəyyən iş görülüb, haqqında monoqrafiyalar yazılıb, Bakı şəhərində məktəbə və küçəyə, vətəni Naxçıvan şəhərində məktəbə, küçəyə, maarif işçiləri evinə və kinoteatra onun adı verilib.

Qərarda Yazıçılar İttifaqına və Mədəniyyət Nazirliyinə tapşırılıb ki, Hüseyn Cavidin 100 illiyi münasibətilə 1982-ci ilin oktyabr-noyabr aylarında Bakı şəhərində və Moskvada təntənəli gecələr, Naxçıvanda, Sumqayıtda, Şəkidə, Qazaxda, Lənkəranda ədəbi-bədii gecələr keçirsinlər. Azərbaycan Elmlər Akademiyası, Mədəniyyət Nazirliyi və Rəssamlar İttifaqı Hüseyn Cavidin həyat və yaradıcılığını əks etdirən sərgilər, habelə yubileyinin keçiriləcəyi günlərdə Moskvada nümayiş etdirilmək üçün sərgi hazırlamalıdır.

Bundan əlavə, qərarda müvafiq qurumlara aşağıdakı tapşırıqlar verilmişdi:

Bakı və Naxçıvan şəhərlərində Hüseyn Cavidə abidələr qoyulsun;

Bakı və Naxçıvan şəhərlərində Hüseyn Cavidin xatirə muzeyləri yaradılsın;

Bakı şəhərinin Kommunist küçəsində Hüseyn Cavidin 1920-ci ildən 1937-ci ilədək yaşadığı 8 nömrəli evin fasadı təzələnsin və ona xatirə lövhəsi vurulsun;

Hüseyn Cavidin 100 illiyinə həsr edilən xatirə medalı hazırlansın;

Hüseyn Cavidin pyesləri respublika teatrlarının repertuarlarına daxil edilsin;

C.Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrının ikinci səhnəsi kimi “Hüseyn Cavid poeziyası teatrı” yaradılsın.

Hüseyn Cavidin dördcildliyi (birinci və ikinci cildləri yubileyədək buraxmaqla) nəşr olunsun, ikicildlik seçilmiş əsərlərinin, haqqında monoqrafiyanın yüksək bədii səviyyədə rus dilinə tərcümə olunması və nəşri təmin edilsin.

1982-ci ildə Hüseyn Cavid haqqında ikihissəli sənədli film çəkilməli, Hüseyn Cavidin pyeslərindən biri üzrə film-tamaşa hazırlanmalı idi.

### 1981-ci il 5 avqust

Azərbaycan KP MK Nizami Gəncəvinin anadan olmasının 840 illiyi haqqında qərar qəbul edib.

Qərarda deyilirdi ki, “Azərbaycanın böyük şair və mütəfəkkiri Nizami Gəncəvinin ədəbi irsinin öyrənilməsini, nəşrini və təbliğini yaxşılaşdırmaq tədbirləri haqqında” Azərbaycan KP MK-nın 1979-cu il 6 yanvar tarixli qərarına uyğun olaraq respublikada böyük iş aparılır. Rəssamlar, bəstəkarlar, kinematoqrafçılar şairə həsr edilən yeni əsərlər üzərində işləyirlər. Moskvada və Bakıda onun əsərlərinin yeni nəşrləri hazırlanır. Kirovabadda (Gəncə) Nizami poeziyası teatrı, Nizaminin xatirə muzeyi yaradılıb. Respublikada hər il Nizami poeziya günləri böyük ədəbi bayram kimi qeyd edilir. Bakı və Kirovabad şəhərlərində Nizami Gəncəvinin abidələri qoyulub. Respublikada küçələr və meydanlar, muzeylər və mədəniyyət evləri, məktəblər və kitabxanalar, kinoteatrlar və parklar, elmi tədqiqat institutu, kolxoz və sovxozlar, metro stansiyası, dəniz gəmisi şairin adını daşıyır. Bakının rayonlarından birinə böyük şairin adı verilib.

Qərarda dahi şairin 840 illiyi ilə bağlı Mədəniyyət Nazirliyinə və digər aidiyyəti qurumlara tapşırıqlar verilmişdi:

“Oktyabr-noyabr aylarında Bakıda, Moskvada və Leninqradda təntənəli yubiley gecələri, habelə Naxçıvanda, Stepanakertdə (Xankəndi – red.), Kirovabadda (Gəncə – red.), Sumqayıtda, Lənkəranda, Bərdədə ədəbi-bədii gecələr keçirilsin;

Kirovabad şəhərində Nizami Poeziya Evi yaradılsın və o, şairin yaradıcılıq irsini təbliğ edən və yayan mərkəzə çevrilsin;

Nizami Gəncəvinin əsərlərinin motivləri üzrə müasir miniatür rəngkarlığı əsərlərinin yaradılması üçün 1981-ci ildə müsabiqə elan edilsin, müsabiqənin yekunları əsasında yüksək poliqrafiya səviyyəsində rəngli albom buraxılsın;

Nizami Gəncəvinin əsərlərinin motivləri üzrə balet tamaşası hazırlansın və s.

***

Mədəniyyət, ədəbiyyat xadimlərinin fəaliyyəti dövlət tərəfindən qiymətləndirilirdi.

### 1981-ci il 16 yanvar

Azərbaycan sovet ədəbiyyatının inkişafında xidmətlərinə görə və anadan olmasının 50 illiyi ilə əlaqədar olaraq filologiya elmləri doktoru, Nizami adına Azərbaycan Ədəbiyyatı Muzeyinin direktoru Bəkir Nəbiyev və filologiya elmləri doktoru, Azərbaycan Dövlət Universiteti Mətbuat tarixi kafedrasının professoru Qulu Xəlilov Azərbaycan Ali Soveti Rəyasət Heyətinin Fəxri fərmanı ilə təltif ediliblər.

### 1981-ci il 26 fevral

SSRİ Ali Soveti Rəyasət Heyətinin fərmanı ilə sovet ədəbiyyatının inkişafında böyük xidmətlərinə görə və anadan olmasının 80 illiyi ilə əlaqədar olaraq yazıçı Əli Vəliyev “Oktyabr inqilabi” ordeni ilə təltif edilib.

**Hazırladı: V.Orxan**

*(davamı var)*

# Teatr Forumundan sonra

## Avazımız yaxşı gəlir və ya söylənənlər söz olaraq qalmasın...



Ötən həftə ölkəmizin mədəni həyatında əlamətdar hadisənin – Ümummilli lider Heydər Əliyevin 100 illik yubiley tədbirləri çərçivəsində Mədəniyyət Nazirliyi və Heydər Əliyev Mərkəzinin birgə təşkilatçılığı, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin iştirakı ilə keçirilən "Azərbaycan teatrı – 150: inkişaf perspektivləri" mövzusunda ilk Teatr Forumunun (11-12 aprel) iştirakçısı olduq.

Yüksək səviyyədə təşkil olunan, müasir yaradıcılıq sənayesi və onun teatr qolunun problem və prioritetlərini ön plana çıxarmaq məramı daşıyan toplantı öz işini gördü. Qalır qarşıya qoyulan məsələlərin, qaldırılan problemlərin həlli yollarını müəyyən etmək və onların ən optimal formada realizəsinə nail olmaq.

Əsas mahiyyətə keçməzdən öncə bir neçə məqamı qısaca qeyd etmək istərdik.

Birincisi, forumu tam izləyən biri kimi çıxış(çı)lar haqqında birmənalı müsbət fikir söyləmək çətindir. Niyə? Çünki bu iki gün ərzində qarşıya qoyulan sualların müzakirəsi ilə bağlı təkliflərdən ziyadə şəxsi istəkləri, öz prizmasından yanaşmaları, daha irəli gedərək, forumun tribunasından bəzi şəxslərin irili-xırdalı ricalarını eşitdik.

İkincisi, forumda səslənən təkliflər təsnifat etibarilə daha çox uzaq perspektivə hesablanmışdı. Odur ki, gəlin, daha çox yaxın perspektivə hesablanan, prosesin hərəkətvericiliyini artıran və ümumi planda mexanizmi sürətləndirənlərə yer verək.

Üçüncüsü, forumun panellərində proqramda nəzərdə tutulan əsas bəndlər müzakirə olunsa da, bəzi məqamlar üzərində elə də dayanılmadı. Sözsüz ki, bu məsələdə mahiyyətdən çıxış etmək istəməyən bəzi iştirakçıların "əməyi" də oldu. Buna bəzən moderatorların auditoriyaya öz subyektiv fikirlərini diktə etmək, formatı öz platformaları sayıb auditoriya mühazirəçisi kimi çıxış etmək cəhdlərini də əlavə etmək olar.

Eyib etməz. İlk təcrübədir. Digər tərəfdən, bu nəhənglikdə tədbir və ən əsası, qarşıya qoyulan məsələlərə münasibət kiçik qüsurları örtmək gücündədir.

Forumun yaratdığı təəssürata gəlincə, sevindirici məqamların əsasında ilk növbədə demokratik tribunanın olmasını, hər bir fikrin ifadəsinə imkan yaradılmasını qeyd etmək gərəkdir.

Önə çıxan məsələlər arasında teatr prosesinin inkişafına sürətlə nüfuz etmək üçün teatr studiyalarının yaradılması, müstəqil teatrlara dəstək, teatrı idarəetmə və kadr siyasətində yeni dövrün tələbləri, teatrda marketinq kimi məsələlər ön planda oldu.

### Dramaturq teatrda yetişir

Bununla bağlı uzun mülahizələrə hacət yoxdur. Birmənalı olaraq yeni, müasir, fərqli, eyni zamanda tamaşaçıya hesablanmış və açıq kassa ilə yaşamağa həvəslənmiş teatrlar qapılarını dramaturqlara açmalıdır. Rejissorlar yaxşı dramaturqları, yaxud dramaturgiyanın texnikasını bilməyib, onun səhnə tələblərinə heç cür uyğun gəlməyən müəllifləri də axtarmağa və onlarla birgə işə məcburdur. İlyas Əfəndiyevdən üzü bəri mükəmməl təcrübələr var və bu elə də böyük plan-proqram, yaxud hər hansı forumda müzakirə istəmir.

Məsələyə forumda çıxış edən və hazırda ölkədə əsərləri ən çox səhnəyə qoyulan müəlliflərdən biri, yazıçı-dramaturq Əməkdar incəsənət xadimi Əli Əmirlinin pəncərəsindən baxaq.

Məsələn, o, deyir ki, dramaturgiyamızdakı mövcud vəziyyətə nəzərən onun inkişaf tendensiyalarını konkret bir fikirlə, sözlə ifadə etmək xeyli çətindir və ona görə də məsələyə konstruktiv yanaşmaq şərtdir: "Rəyimi bilmək üçün mənə gənc həmkarlarımın göndərdiyi pyesləri məmnuniyyətlə oxuyuram, o pyeslərdə yenilik görməyəndə məndə, türklər demiş, xəyal qırıqlığı yaranır. Cavabım çox vaxt eyni olur. Mənim kimi və ya mənsub olduğum nəslin nümayəndələri kimi yazmayın, biz bu yolu keçmişik, hələ keçməkdə də davam eləyirik. Yeni nəfəs, yeni material, yeni keyfiyyət lazımdır. Çox istərdim ki, özəl teatrlar gənc dramaturqların yaradıcılığına diqqət yetirsinlər, onların əsərləri ilə tanış olsunlar, teatrın, səhnənin, dramaturgiyanın dilini öyrənməkdə onlara yardımçı olsunlar".

Dramaturqlar üçün müsabiqə və kursları da vacib sayan Ə.Əmirli gənc müəlliflərə stimul üçün müsabiqələrin mütəmadi təşkilini də irəli sürdü. Qalır teatrların müəlliflərlə müəyyən olunmuş qonorar müqabilində işləməsinə. Bu, bizim reallıqda hələ müşkül görünür. Çünki bu gün teatrlar yox, müəlliflər əsərlərinin oynanmasında maraqlıdırlar və bu mənada artıq, qeyri-rəsmi də olsa, bir qanunauyğunluq formalaşıb.

### Teatrların da əsas istəyi budursa...

Yaxşı, vəziyyət belədirsə, onda teatrlar, rejissorlar niyə müasir əsər sarıdan çətinlik çəkirlər? Belə olduqda tez-tez onlara qarşı səsləndirilən "Klassikadan əl çəkin", "Ölü dramaturqla işləməyə nə var ki" kimi ittihamlar yetərsiz görünür.

Bu mövzuda teatrların, rejissorların da öz arqumentləri var.

Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrının baş rejissoru Əməkdar incəsənət xadimi, müasir teatrımızda fərqli və maraqlı quruluşlarda adı olan Mehriban Ələkbərzadəyə qulaq "verək": "Əvvəla, onu deyim ki, bu forum gündəlik fəaliyyətimizdə rastlaşdığımız problemlərin haradan qaynaqlandığını üzə çıxarıb, onu aradan qaldırmaq üçün gözəl fürsət idi. O həm də milli teatrın inkişafı naminə birlikdə ortaq məxrəcə gəlmək mütləqliyi üçün idi. Üzə çıxan və həllini gözləyən məsələləri sadaladıq. Bu, öz yerində. Bu gün daha çox teatrın inkişaf strategiyasının təyini (ən azı 10 il) üzərində dayanmalı, hədəflər müəyyən edilməlidir. Gənc rejissorlarla özünüifadə imkanları yaradılmalıdır.

Teatrlarda maddi-texniki bazanın vəziyyətinə mütləq baxılmalıdır. Çünki tamaşaların keyfiyyəti həm də bundan asılıdır. Teatrlarda prodüser, ya menecerlik mütləqdir. Buraya beynəlxalq arenaya çıxış, yaxud qastrolların təşkili məsələsi daxildir. Teatrlarda truppa problemi də göz önündədir. Düşünürəm ki, truppa mütləqliyi aradan qaldırılmaqla işə qəbula yenidən baxılmalıdır. Teatrlarda (hər bir teatr öz spesifik və estetik üslubuna uyğun) prosesin davamlılığının təmini üçün studiyalar şərtdir. Bu həm də ya ali təhsilə qədər, ya da işə qəbuldan sonra uyğunuq yaratmaq və hazırlıq prosesi kimi qəbul olunur".

### Dərd tək bilet satmaq olsaydı...

Teatr marketinqi və onun təşkili bu gün ən ümdə məsələlərdəndir. Sözsüz ki, birmənalı olaraq hər teatr öz tamaşaçı auditoriyasını müəyyən etməyə və davamlı onlarla işləməyə maraqlıdır. Amma, bu, zaman üçün yetərli deyil. İndi bu və digər şəkildə bilet satışından daha çox teatrın, səhnə sənəti nümunələrinin cəmiyyətin fərdləri arasında mədəni istehsal sahəsi olaraq tələb-təklif sırasına düşməsi şərtdir. Bu gün ölkəmizdə əsas teatr sistemi dövlət büdcəsindən maliyyələşir və alternativ maliyyə mənbələrinin istifadəsi halları çox azdır. Bunun isə kompleks səbəbləri var.

Bu səbəblərə teatrşünas, sənətşünaslıq üzrə fəlsəfə doktoru Elçin Cəfərovun prizmasından baxaq: "Marketinq teatrı maddi asılılıqdan qurtarmaq və onun alternativ maliyyə mənbələrinə çıxış imkanlarını yüksəltmək üçün açar söz rolunu oynayır. Bizdə isə bu istiqamətdə atılan addımlar pərakəndə xarakter daşıyır. Hərçənd ki, çağdaş dünya teatrlarının təcrübəsi göstərir ki, məhz bu istiqamət teatrın var olması, teatra tamaşaçı marağının təmin edilməsi, teatr sənətinin bir sənət növü kimi populyarlaşdırılması və cəmiyyətdə nüfuzunun yüksəldilməsi, eləcə də, teatr-tamaşa müəssisələrinin maliyyə sisteminin davamlılığını və rentabelliyini təmin edən başlıca amildir".

Heç şübhəsiz ki, marketinq strategiyası öz-özünə tərtib edilə bilməz. Çünki teatr və bazar münasibətlərinin inkişaf yönünü təyin edən bu strateji sənəd, müəssisənin biznes strategiyasına və ümumi inkişaf strategiyasına söykənməlidir. Belə olduqda klassik tamaşa təşkili və satışı mühitinin müəyyənləşməsi üçün fərdi üsullara da ehtiyac qalmayacaq.

### Oxuyan da, oxudan da narazı qalarsa...

Teatrlar üçün kadr hazırlığı, onun səviyyəsi də mütəmadi müzakirədədir. Forumda bu mövzuda da giley-güzarlar səsləndi. Özü də oradakı əksəriyyətin məzun olduğu, bir qismin də pedaqoq kimi fəaliyyət göstərdiyi Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetindən. Təzadlıdır, deyilmi? Bu suala cavab çoxbaşlı olsa da, qarşı tərəfin arqumentini də bilmək maraqlı idi.

ADMİU-nun Teatr sənəti fakültəsinin dekanı Böyükxanım Talıbovanın qənaətinə görə, məsələ gənclərin təhsilə soyuqqanlı, bir növ həvəssiz yanaşmasından başlayır. Digər tərəfdən, teatr təhsili haqqında səsləndirilən "bəzi əlavə fənlərə çox yer ayrılır" kimi iradlar əsassızdır, ictimaiyyətdə dərs saatları ilə bağlı yanlış informasiya var. Belə ki, ölkənin təhsil siyasəti, təhsillə bağlı qanun var. Eyni təhsil proqramı ilə eyni ali təhsil müəssisəsini müxtəlif nəticə göstərərək bitirən tələbələr var. Kimi uğurlu, kimi uğursuz olur.

Belə olduqda başqa bir sual da yaranır: uğurlu kadrların seçimi və yerləşdirilməsi üçün müştərək addımlar atılırmı?

Universitet təmsilçisi bu məqamda ali təhsil müəssisəsi ilə teatrlar arasında sıx əlaqənin vacibliyinə diqqət çəkdi: "Tələbələr truppa ilə davamlı ünsiyyətdə olmalıdır, teatrı tanımalıdır. Ali məktəb teatr vasitəsilə istedadın inkişafına şərait yarada, özünü təkmilləşdirmək istəyinə, bədii zövqünə təsir edə bilər. Elm və Təhsil Nazirliyinin tabeliyində olan Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti Mədəniyyət Nazirliyinin tabeliyində olan müəssisələr üçün kadr hazırlayır. Bu iki qurum sıx əməkdaşlıq etməlidir".

Burada qəribəlik yaradan məqam nədir? Universitet kortəbii, tələb və təklifi öyrənmədən kadr hazırlığında ittiham olunur. Başqa tərəfdən də, bölgə teatrları peşəkar aktyor, rejissor böhranı yaşadığını car çəkir. Deməli, qurumlararası əlaqə möhkəmlənməli və mərhələli iş prinsipi mərkəzə gəlməlidir. Teatrlar, Mədəniyyət Nazirliyi və ADMİU kadr hazırlığında olan ehtiyacları analiz etməli və statistik göstəricilər əsasında təhlillər aparmalıdır.

Bir sözlə, Teatr Forumunda qaldırılan və həlli vacib məsələlər çoxdur, mövzuya yəqin hələ yenə qayıdacağıq...

**Həmidə Nizamiqızı**

# Şərqi Zəngəzurun tarixi abidələri

Azərbaycanın tarixi torpaqlarından olan Zəngəzur mahalı tarixi abidələrlə zəngin bölgələrimizdən biridir. Bu abidələr minilliklər ərzində Zəngəzurun qədim Azərbaycan əraziləri olduğuna şahidlik edir. Əsasən dağlıq ərazi olan bu bölgədə Qədim Daş dövrünə aid düşərgə, Tunc dövrünün qayaüstü təsvirləri, qəbir abidələri və yaşayış yerləri, Albaniya dövrünə aid məbədlər, yaşayış yerləri və qəbirlər, Orta əsrlərə aid yaşayış yerləri, qəbirüstü türbələr və s. tarixi-arxeoloji abidələr aşkar edilib.

Sovet imperiyası Zəngəzuru iki hissəyə bölüb və bu qədim Azərbaycan diyarının qərb yarısı Ermənistan SSR-in tərkibinə verilib. Kəlbəcər, Laçın, Qubadlı, Zəngilan və Cəbrayıl rayonlarının ərazisindən ibarət Şərqi Zəngəzur isə Azərbaycan Respublikasının tərkibində qalıb. Şərqi Zəngəzur 30 ilə yaxın müddətdə Ermənistanın işğalı altında qalıb və bu onilliklər ərzində işğalçılar bölgənin kənd və şəhərlərini qarət etməklə yanaşı, xalqımıza məxsus tarixi yadigarları da məhv ediblər.

Bölgə Azərbaycanın alban irsi ilə zəngindir. Erməni vandalları alban xristian məbədlərini ya dağıdır, ya da təhrif edərək özününküləşdirməyə çalışırdılar. Dağıntılara kütləvi şəkildə məruz qalan İslam mədəniyyəti abidələri – məscidlər, qəbirüstü türbələr, epiqrafik yazılar idi. Bununla yanaşı, erməni "alimləri" bu zonadakı bəzi müsəlman abidələrini saxtakarlıqla "türkmən abidələri" kimi təqdim etməyə çalışırdılar. Məsələn, Orta Tunc dövrü ilə məşğul olan, saxtakarlığı ilə tanınan erməni arxeoloq A.Simonyan 2001-ci ildəki məqaləsində birdən-birə Orta əsrlərin İslam abidələri olan, Laçın rayonunun Cicimli kəndindəki Məlik Əjdər və Kar Kümbəz türbələrini Qaraqoyunlu sultanlarına məxsus türkmən abidələri kimi təqdim edib.

Arxeoloq Tarix Dostiyev erməni "aliminin" bu saxtakarlığını tutarlı faktlarla ifşa edərək onun cəfəng məqaləsinin elmdən uzaq olduğunu sübut edib. T.Dostiyev yazır ki, A.Simonyan bu abidələri Ermənistan ərazisində yeni aşkar edilmiş abidələr kimi qələmə verir, bu türbələri XV əsrə aid edir, onların 6 künclü plana malik olduğunu yazır. Halbuki bu türbələr Azərbaycanın Laçın rayonu ərazisində yerləşir, onlar elmə hələ XX əsrin 30-cu illərindən məlumdur. Məlik Əjdər türbəsi XIII əsrə, Kar Kümbəz türbəsi isə XVII-XVIII əsrlərə aiddir, onlar 8 guşəli plana malikdir və onların Qaraqoyunlu sultanları ilə heç bir bağlılığı yoxdur.

Şərqi Zəngəzur tarixi-arxeoloji abidələrlə zəngindir. Bu bölgəyə daxil olan hər bir rayon ərazisində, xüsusilə də Araz çayı, onun qolu Həkəri çayı və mənbəyini Dəlidağdan götürən, şərq istiqamətinə – Kürə doğru axan Tərtər çayı vadilərində qədim tarixin müxtəlif mərhələlərinə aid abidələr aşkarlanıb. Bunlar qədim yaşayış yerləri, qəbir abidələri, qayaüstü təsvirlər, körpülər, məbədlər və s. tarixi abidələrdir. Lakin çoxsaylı abidələrin aşkar edilməsinə baxmayaraq Şərqi Zəngəzur Azərbaycanın arxeoloji baxımdan ən zəif öyrənilmiş bölgəsidir. Görünür, bu, ilk növbədə, bölgənin mürəkkəb relyefi, çətin coğrafi şəraiti ilə bağlı olub. Buradakı abidələr əsasən keçən əsrin 70-80-ci illərində arxeoloqların apardıqları kəşfiyyat-axtarış işləri nəticəsində qeydə alınıb.

1976-cı ildə arxeoloq Qüdrət İsmayılzadə Tərtər çayının yuxarı axarı hövzəsində, Kəlbəcər rayonu ərazisində, Dəlidağın yamaclarında Tunc dövrünə aid qayaüstü təsvirlər aşkar edib. Rəsmlər dəniz səviyyəsindən 3 min metrədək yüksəklikdə yerləşən Zalxagöl, Qaragöl sahillərində, Ayı çınqılı, Pəri çınqılı, Taxta adlanan sahələrdə cəmlənib. Bazalt daşları üzərində həkk edilmiş bu təsvirlərin mövzuları müxtəlifdir. Bunlar insanların, müxtəlif heyvanların, öküzlərin qoşulduğu arabaların və s. rəsmləridir. Burada dağ keçilərinin və maralların ovlanması səhnələrinə rast gəlinir. Maraqlıdır ki, həmin təsvirlərlə eyni ərazidə Tunc dövrünün əvvəllərinə – eramızdan əvvəl III minilliyin başlanğıcına aid dairəvi planlı kompakt yaşayış yerinin qalıqları aşkarlanıb. Bir neçə ailə üçün nəzərdə tutulmuş və daş tikililərlə möhkəmləndirilmiş bu yaşayış yeri yaylaq maldarlığı təsərrüfatı üçün səciyyəvidir. Bütün bu qayaüstü təsvirlər, yaşayış yerinin qalıqları hələ 5 min il əvvəl bu yüksək dağlıq ərazilərin məskunlaşdığını sübut edir.





Dəlidağ təsvirləri, heç şübhəsiz, Qarabağın aran zonasının – Tərtər çayının aşağı axını hövzəsinin əkinçilik və maldarlıqla məşğul olan Tunc dövrü əhalisinin yay mövsümlərində yaylaqlara köç zamanı yaratdıqları mədəniyyətdir. Hələ İlk Tunc dövründə Qarabağın aran və dağlıq əraziləri, o cümlədən Zəngəzur dağları təsərrüfat və mədəni baxımdan bir-biri ilə sıx bağlı idilər. Eyni zamanda, Dəlidağ, Qərbi Zəngəzur, Göyçə gölü hövzəsi və Ordubad rayonundakı Gəmiqaya rəsmləri eyni tarixi dövrə, eyni məzmuna malik olub Kiçik Qafqazda Azərbaycanın vahid Tunc dövrü mədəniyyətinin tərkib hissələridir. İşğaldan azad edildikdən sonra Dəlidağ zonasında geniş tədqiqatlar aparmaq, minlərlə qayaüstü təsvirləri qeydə almaq üçün geniş imkanlar yaranıb. Belə təsvirlərin Dəlidağın Laçın rayonu istiqamətindəki yamaclarında da aşkar ediləcəyi istisna deyildir.

Keçən əsrin 80-ci illərində arxeoloq Mənsur Mənsurov kəşfiyyat işləri zamanı Kəlbəcər rayonunun Zar kəndi yaxınlığındakı mağarada Orta Paleolit dövrünün son və Üst Paleolit dövrünün başlanğıc mərhələsinə aid düşərgə aşkar edib. Mağaranın giriş hissəsinin tavanı uçub. Arxeoloq bilavasitə mağaranın girişində yoxlama qazıntısı aparıb, buradakı mədəni təbəqənin mövcudluğunu və onun xüsusiyyətini müəyyənləşdirib. Qazıntı nəticəsində ərazinin Paleolit dövrü insanlarının istifadə etdikləri müxtəlif tipli daş alətlər aşkarlanıb. Zar mağara düşərgəsi, ilk növbədə, ona görə mühüm elmi əhəmiyyətə malikdir ki, bu abidə Azərbaycan ərazisində qədim Daş dövrünün ən zəif öyrənilmiş Üst Paleolit mərhələsinə aid nadir abidələrdəndir. Bu düşərgənin gələcək tədqiqatları Azərbaycanın ən qədim tarixinin tədqiqatlarındakı müəyyən boşluğu doldurmağa imkan verəcək.

İşğaldan azad edilmiş Qarabağda və Şərqi Zəngəzurda genişmiqyaslı arxeoloji araşdırmaların aparılması, abidələrin qeydiyyata alınması, onların məlumat bazasının sistemləşdirilməsi tədqiqatçıların qarşısında duran ən mühüm vəzifədir. Bölgədə aparılacaq tədqiqatlar tarixi dövrlər arasında bağlantılar, mədəni irsilik problemlərinin öyrənilməsini təmin edəcək.

**Nəcəf Müseyibli**
**Mətanət Hüseynova**
**Seymur Fərmanlı**
**AMEA-nın Arxeologiya, Etnoqrafiya və Antropologiya İnstitutunun əməkdaşları**

# Dövlət arxiv xidməti təşkilatlarının fəaliyyəti müzakirə olunub

Milli Arxiv İdarəsində dövlət arxiv xidməti təşkilatlarının fəaliyyəti və qarşıda duran vəzifələrə həsr edilmiş geniş kollegiya iclası keçirilib.

İdarədən bildirilib ki, iclasdan öncə iştirakçılar Dövlət Kino-Foto Sənədləri Arxivində mühafizə edilən fotosənədlər əsasında hazırlanmış "Heydər Əliyev – 100" adlı sənədlər sərgisi ilə tanış olublar.

Milli Arxiv İdarəsinin rəisi Əsgər Rəsulov Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında arxiv işinin inkişafına dair 2020-2025-ci illər üzrə Dövlət Proqramı"nın icrası haqqında məlumat verib.

İdarənin rəis müavini Həsən Həsənov dövlət arxiv xidməti təşkilatlarının son ildə fəaliyyətini əks etdirən məruzə ilə çıxış edib. Məruzədə respublika arxiv xidməti təşkilatlarının fəaliyyəti, arxivlərin komplektləşdirilməsi, uçot və mühafizə, sənədlərdən istifadə, arxiv sənədlərinin rəqəmsallaşdırılması, arxivçi kadrların hazırlanması və digər sahələrə dair nəticələr barədə geniş məlumat verilib.

Məruzə ətrafında çıxış edən Naxçıvan Muxtar Respublikası Dövlət Arxiv İdarəsinin rəisi Mehman Məmmədov, Dövlət Tarix Arxivinin direktoru Anar Mirəliyev, Dövlət Kino-Foto Sənədləri Arxivinin direktoru Vüqar Tapdıqlı, Dövlət Arxivinin direktor müavini Səyyarə Hacıyeva, Dövlət Arxivinin Bakı filialının direktoru Ağakişi Allahverdiyev, Dövlət Arxivinin Quba filialının direktoru Şirin Müzəffərov, Dövlət Arxivinin Şirvan filialının direktoru Nəsibə Məmmədova, İsmayıllı rayon Dövlət Arxivinin direktoru İsa Əkbərov 2022-ci ildə arxiv işi sahəsində görülmüş işlər, mövcud problemlərin həlli istiqamətində təkliflər səsləndirib və fikirlərini bildiriblər.

# Musiqi dünyamızın Həcər xanımı

## Ötənlərin xatirəsi...



1992-ci ilin yayı. Asəf Zeynallı adına Azərbaycan Dövlət Musiqi Texnikumuna (indiki Milli Konservatoriya nəzdində Musiqi Kolleci) qəbul imtahanları. İddiaçılardan biri olan bu sətirlərin müəllifinin digər həmkarları kimi həyəcandan doğan hərarəti məkandan kənar təbii istiliyin dərəcəsi ilə müqayisə oluna bilməz. İmtahanlardan ən çətini hesab olunan "şifahi solfecio" kollecin üçüncü mərtəbəsindəki siniflərdən birində keçirilirdi. Budur, auditoriyanın qapısı açılır və gülərüzlü, kübar görünüşlü xanım bizlərdən birinci kimin içəri keçəcəyini soruşur. Bu zaman diqqətini mənə yönəldərək: "Oğlum, bəlkə səndən başlayaq" sualının ardınca həyəcanımı gizlətməyə çalışaraq irəli addımlayıram. Təvazökarlıqdan uzaq olsa da, imtahandan yüksək qiymət aldıqdan sonra həmin xanım: "Təbrik edirəm, bala, yolun açıq olsun" sözləri ilə məni dəhlizə yola salır. Həmin gülərüz xanım dəyərli oxucuların mütaliə elədiyi yazımın qəhrəmanı, bizim yubilyar professor Həcər Babayeva idi.

### Xəzri ilə gilavarın qovuşuğunda

Deyilənə görə, İçərişəhəri quran memarlar məkanın küçələrini elə planlaşdırıblar ki, xəzri küləyi gilavarla daima qarşılaşır. Buna görə də heç vaxt oradakı küçələrdə toz olmaz. Bakının mərkəzində, qala divarları arasında uyuyan tarixi məkanın təməlindəki təmizlik burada əsrlər boyu cəmlənən yüksək mənəvi dəyərlərə də sanki bir paklıq qatıb.

İçərişəhərin mədəniyyət abhavasında püxtələşən şəxsiyyətlərin siyahısı peşəkar milli bəstəkarlıq məktəbinin nümayəndələri Tofiq Quliyev, Xəyyam Mirzəzadə, Ədilə Hüseynzadədən tutmuş, "Kəsmə şikəstə"nin unudulmaz ifaçısı Fatma Mehrəliyeva, milli tar ifaçılığının Mansurovlar şəcərəsinə, caz-muğam sintezinin yaradıcısı, pianoçu Vaqif Mustafazadəyə, milli kinomuzun ünlü nümayəndələrindən rejissor Arif Babayevə, rəssamlıq sənətinin öncüllərindən Elbəy Rzaquliyevə, tabloları dünya salonlarını bəzəyən Tahir Salahova və daha kimlərə-kimlərə qədər uzanır. Bax belə məkanda, qədim qalanın sayılıb-seçilən ailələrinin birində 17 aprel 1948-ci ildə Həcər Babayeva dünyaya göz açıb.

Yubilyarın bacısı, görkəmli violin ifaçısı, Xalq artisti Zəhra Quliyeva xatırlayır: "Böyüdüyümüz ailə çox mehriban və mənəvi cəhətdən kübar, ziyalı insanlar idi. Atam Teymur müəllim hərbçi olmuş, Böyük Vətən müharibəsinin ilk günündən sonunadək iştirak etmiş, orden və medallarla təltif olunmuşdu. Anam Məryəm xanım filoloq idi, fəlsəfə üzrə elmlər namizədi adını isə artıq iki qız nəvəsi olanda aldı. Səbəbi isə bizlər idik: Həcər, Suğra, Təhminə və mən. Bu dörd qız uşağını layiqli, təhsilli, bacarıqlı, öz ayaqları üzərində dik dura bilən şəxsiyyət kimi yetişdirmək, onlara doğru həyat prinsiplərini, yolunu göstərmək böyük əmək, zaman, səhhət tələb edirdi".

Teymur və Məryəm Quliyevaların ailəsində musiqi aləminə bağlılıq genetik yaddaşın təzahürüdür. Teymur müəllimin əmisi oğlanlarından Akif və Tohid Quliyevlər peşəkar violin ifaçıları, digəri Xalq artisti Tofiq Quliyev isə bəstəkar, pianoçu idi. Buna görə də, valideynlər ilk olaraq ailənin ilki Həcəri musiqi təhsilinə yönəltdilər.

Zəhra xanım xatırlayır: "...Böyük bacım Həcər elə İçərişəhərdə yaşayan Ruqiyyə xanımdan piano dərsləri alırdı, məni də ona qoşdular ki, zamanım boş keçməsin. Beləliklə, musiqi bizi öz ağuşuna elə sıx aldı ki, hər ikimiz bu gün də ondan xilas olmağı heç düşünmürük...".

Ümumiyyətlə, o dövrdə İçərişəhərin mənəvi mühiti ilə bağlı Həcər xanımın uşaqlıq xatirələrinin qəhrəmanlarından biri, dünyaca məşhur cazmen Vaqif Mustafazadə ilə əlaqəli fikirlərinə diqqət etmək kifayətdir: "... Məhəllənin bir başında bizim evimiz yerləşirdi, digər başında isə onların evləri... Bircə onu bilirdik ki, bu evdə İçərişəhərin yaraşıqlı oğlanlarından olan Zivər xalanın yeganə övladı Vaqif yaşayır... Zivər xala da İçərişəhərin hörmətli, ziyalı qadınıdır, musiqi müəllimidir, çoxlu tələbələri var... Bizim məhəllə heyranımız olan Vaqif isə tipik İçərişəhər uşağıydı. Məhəllədə futbol oynayan, evinin tinində saatlarla dayanıb tay-tuşlarıyla söhbət edən, mübahisə aparan, böyüklərnən ədəb-ərkan saxlayan, İçərişəhər qızlarını qoruyan dəliqanlılardan idi...".

### Tədqiqatçı həyatından yarpaqlar

Həcər xanımın tədqiqat maraqları müxtəlifdir. Buraya həm xalq, həm də peşəkar musiqi yaradıcılığı ilə bağlı sahələr daxildir. Dəyərli alim musiqişünas təfəkkürünün təcəssümünü həmişə yenilikdə görərək tədqiq olunacaq problemin lokal deyil, qlobal müstəvidə elmi araşdırmalara cəlb etməyi doğru hesab edir: "...Əgər musiqişünas bir tədqiqata başlayırsa, o, əsərində yenilik axtarmalıdır. Məsələn, baxmayaraq ki, şifahi xalq ədəbiyyatımızda bayatı janrı var, mən vaxtilə "Azərbaycan musiqisində bayatı janrı" mövzusu ətrafında tədqiqat aparırdım. Bu tədqiqatı edərkən mən Azərbaycan bayatısı ilə İraq türkmənlərinin xoyratlarını müqayisə etdim. Çünki türkmən xoyratları bayatının bir növüdür.

Daha sonra Azərbaycan bayatısı və türk musiqisində manilərin tədqiqatını apardım. Əsas da xoyrat, mani, bayatı – bu üçlüyün bir-birinə münasibətini tədqiq etdim... 1985-1988-ci illərdə həyat yoldaşım Elxan Babayevlə İraqa ezam olunduğumuz zaman mən də İraq xoyratları, Azərbaycan bayatıları və türk manilərinin musiqidə müqayisəsini etməyə çalışdım. Bir çox İraq xoyratlarını nota saldım. Bu çalışmalar musiqi tədqiqatları üçün yeni fikirlər ortaya qoydu...".

Başqa sözlə, Həcər xanım musiqi elmində mütərəqqilik prinsipini həmişə əldə olunan nailiyyətlə kifayətləmədən mütləq şəkildə yeni araşdırıcı cığırlarını aramaqda görür. Təsadüfü deyil ki, tədqiqatçının hər iki qız övladı valideynlərinin sənətlərini davam etdirərkən milli musiqi fikrimizdə öz yollarını taparaq maraqlı elmi araşdırmalarla diqqəti cəlb eləyiblər. Ailənin böyük qızı, hazırda Türkiyədə, Konya Nəcməddin Ərbakan Universitetinin professoru, sənətşünaslıq üzrə elmlər doktoru, musiqişünas Aynur Elxan Nayır "XX əsrin solfecio sistemlərinin müqayisəli təhlili" adlı elmi işində müxtəlif tədris metodikaları və material tərkiblərinin müqayisəli təhlilini apararaq on dərslik nəşr etdirib. Ailənin sonbeşiyi, Üzeyir Hacıbəyli adına BMA-nın professoru, sənətşünaslıq üzrə elmlər doktoru Aytac Rəhimova isə 2003-cü ildə "Azərbaycan musiqisində meyxana janrı" adlı namizədlik dissertasiyası ilə milli musiqi tarixində ilkə imza atıb.

### Ekran-efirlə təmas

Həcər xanımın musiqişünas həyatı təkcə bu günümüzə qədər davam edən Bakı Musiqi Akademiyasında pedaqoji fəaliyyətlə kifayətlənməyərək, teleradio və mətbuatla aktiv əməkdaşlıqla da əhatələnir. Bu sıraya onun musiqi sənətinin müxtəlif problemlərin ilə bağlı dövlət təşkilatlarında, həmçinin ölkəmizdən kənarda milli və professional musiqi üzrə ekspert kimi məhsuldar işini də əlavə eləmək istərdim.

Musiqi sənətimizin ünlü simaları haqqında yazılarımda müasir televiziya və radio sahəsində problemlərə toxunarkən həmişə keçənlərdəki vəziyyətlə müqayisələr aparıram. Təkrarçılıq olmasın, amma bir həqiqəti yenə qeyd etmək istəyirəm. O illərdə ekran-efir çevrəsində elmin istənilən sahəsi ilə bağlı verilişlərin hazırlanması və yayımında mövcud sahənin aparıcı mütəxəssisləri dəvət alırdılar. Həcər xanımın yaradıcı taleyində "Bəstəkarların iş otağında", "Musiqi aləmində", "Musiqi haqqında söhbətlər", "Xaqani, 27" kimi telelayihələr deyilənlərə misaldır. Bəstəkarlar İttifaqının o dövrdə rəhbəri Aqşin Əlizadənin təşəbbüsü ilə ərsəyə gələrək milli televiziyamızın efirində ayda bir dəfə sərgilənən "Xaqani, 27" ümumən musiqi aləmində səs salmışdı. Həmin hadisələrin canlı şahidi və bilavasitə iştirakçısı professor Zümrüd Dadaşzadə xatırlayır: "...Hər ay İttifaqın salonunda yeni musiqi və bəstəkarlarımızın yaradıcılığı, başqa aktual mövzular haqqında söhbət aparılırdı... Verilişin yaradıcı heyətinin üzvləri sırasında müəllif və aparıcılar Lalə Hüseynova, Nəzakət Qasımova və Həcər Babayeva, habelə televiziyanın Musiqi şöbəsinin redaktoru Salehə Əfəndiyeva da xatırlanmalıdır...".

### Qurduğu ocağın qoruyucu mələyi



Həcər xanımın şəxsiyyəti barədə danışarkən onun qayğıkeş ana və həssas qəlbə məxsus həyat yoldaşı və diqqətcil bacı kimi yüksək insani keyfiyyətlərinə toxunmamaq olmaz. Əksər hallarda eyni peşə sahiblərinin sənət məkanında təkcə tərəf-müqabil kimi deyil, həyat yoldaşları, valideyn kimi ailə ocağı çərçivəsində qovuşması təbiidir. Digər tərəfdən heç də hər belə birliyin daxilində problemlər, çətinliklər qarşısında əsl mənada vahidlik, ümumi harmoniya, çiyin-çiyinə güvən müşahidə etmək olmur. Amma Həcər xanımla həyatdan nakam getmiş Elxan müəllimin yüksək mədəniyyətə malik ailə münasibətləri əvvəldə qeyd etdiyim ali keyfiyyətləri ilk andan öz ruhuna hopdurmuşdu.

Dəyərli yubilyar müsahibələrin birində ömür-gün yoldaşı haqqında xatirələrini bölüşərkən hələ orta məktəb skamyasından başlayaraq fasiləsiz davam edən peşəkarlığa yiyələnmə "yarışmasından" söhbət açır. Bildiyimiz kimi, Elxan müəllim kamil klarnet ifaçısı olmaqla yanaşı, həm də zəngin biliklərə malik musiqişünas idi. Bu baxımdan Həcər xanımla eyni peşə sahibləri olaraq mətbuatda, əsasən də "Qobustan" jurnalının səhifələrində publisistik mövzularla çıxışlar edirdilər. Əksər hallarda mətbu orqanın eyni nömrəsinin səhifələrində. Məsələn, "Qobustan" jurnalının 1972-ci il 1-ci nömrəsində ADK-nın (indiki BMA) yaranmasının 50 illik yubileyi ilə əlaqədar artıq məzun olmağa hazırlaşan Elxan Babayevin "Tələbə sorğu aparır" rubrikasında öz fikirlərini bölüşənlər arasında IV kurs tələbəsi Həcər xanım da vardı. Eynilə on il sonra, həmin jurnalın 1982-ci il 3-cü buraxılışında Elxan müəllim o illərdə Moskva Konservatoriyasının professoru, Azərbaycan və RSFSR-in Əməkdar artisti Məmməd Orucovla bağlı "Mahir qoboyçu" adlı məqalə-müsahibəsi ilə yanaşı, Həcər xanımın digər fenomen, pianoçu Namiq Sultanovla bağlı "Pianoyla keçən illər" yazısı yer alır. Məhz belə bir isti ailə aurasında həyata vəsiqə qazanan övladların formalaşması öz müsbət nəticəsini vermiş olur.

### Söz övladlarındır

Aynur Elxan Nayır: "...Musiqişünas ailəsində böyümək və bu ab-havanı hiss etmək çox gözəl idi. Bizim evdə atamın və anamın böyük bir kitabxanası var. Burada müxtəlif müəlliflərin elmi kitabları, bəstəkarların bir çox əsərlərinin klavir və partituraları, qrammofon valları var idi. Mən və bacım hələ kiçik yaşlarımızdan həmin aləmin daimi üzvləri idik.

Atam Elxan müəllim olduqca qayğıkeş və mehriban insan, bizə və sevdiyi peşəsinə çox bağlı şəxsiyyət idi. Çox təəssüf ki, onun ömür yolu 54 ilə sığışdı. Amma qısa zaman kəsiyində yaşamasına baxmayaraq, gözəl övladlar, tələbələr və musiqi elminə dəyərli işlər qoyub getdi.

Anam Həcər xanımı ailəmizin qoruyucu mələyi adlandırardım. O, fədakar və olduqca kamil, zəkalı qadın, bütün həyatını ailəsinin formalaşmasına həsr edən insandır. Həm mərhum atamın, mənim və artıq professor Aytac Rəhimovanın, hətta xalam Zəhra xanımın mənəvi dayağı və məsləhətçisi anamdır".

Aytac Rəhimova: "Anam çox fədakar qadındır. Hər zaman ailə üzvlərini çalışmağa, yeni zirvələr fəth etməyə ruhlandırırdı. Atamı itirəndə 28 yaşım vardı. Ailəlikçə çox ağır dönəmdən keçdik. Anam çox güclü qadın olaraq o zaman bizə ayaqda durmağa dəstək oldu. Atasız olmağımızı hiss etdirmirdi. Bacım və mən dissertasiya işlərimizi müdafiə etdik. Hər zaman demişəm, anamın dəstəyi olmasaydı bu gün mən etdiklərimi, qazandıqlarımı bəlkə bir on ildən sonra qazana bilərdim. Hər zaman, küçədə belə tələbələrini gördükdə onların anama qarşı sevgilərinin şahidi olmuşam...".

### Ən sonda...

Aytac xanımın sözünə qüvvət kimi Elxan müəllim və Həcər xanımın tələbələrindən biri Əməkdar artist Əziz Qarayusiflinin isti duyğularla zəngin xatirəsini burada bölüşmək yerinə düşər: "Bu gözəl ailə ilə biz bir binada qonşu idik. Mənim musiqiyə gəlişim, daha doğrusu, klarnet ifaçısı kimi yetişməyimdə Elxan müəllimin birbaşa iştirakı oldu. Mən onun ilk tələbəsi idim, üstəlik bizim təhsil çərçivəsində münasibətlərimiz musiqi məktəbinin ilk sinfindən başlayaraq konservatoriyanın son kursuna qədər olduqca məhsuldar yol keçdi. Təbiətcə sakit görünüşlü Elxan müəllim dərs prosesində çox ciddi, tələbkar pedaqoq idi. Həcər xanım isə əksinə, həyatda bir qədər ötkəm, səs-küylü olsa da, tələbələri, konkret mənimlə münasibətdə həlim xasiyyətli idi. Maraqlı təzaddır, elə deyilmi? Necə ki, Xəzri və Gilavarın qovuşması kimi. Amma sənətdə əldə etdiyim nailiyyətlərimə görə mən bu gözəl cütlüyə daima minnətdaram. Tanrıdan Elxan müəllimə daima rəhmət diləyir, əziz Həcər xanımı isə yubileyi münasibətilə səmimi qəlbdən təbrik edirəm".

Klassik ədəbiyyatda pərvanənin şam ətrafında sonsuz dövr etməsi əsl sevginin simvollarından biri kimi qeyd olunur. Həcər xanım ziyası sərhədlərə sığmayan bir nur çeşməsi, paklıq mənbəyi kimi həmişə ətrafdakıları cəzb edən böyük qüvvəyə malikdir.

Ziya çırağınız daima gur yansın, Həcər xanım.

**Yavər Neymətli**
**sənətşünaslıq üzrə fəlsəfə doktoru**

## Xatirə təqvimi — 19–23 aprel

### Azərbaycan

**19 aprel 1905** – Məşhur memar, Dövlət mükafatı laureatı, Sosialist Əməyi Qəhrəmanı, akademik Mikayıl Ələsgər oğlu Hüseynov (1905 – 7.10.1992) Bakıda doğulub. Nizami adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyi, Milli Kitabxana, AMEA-nın binası, Bakı Musiqi Akademiyası və s. tikililərin layihə müəllifidir.

**19 aprel 1907** – Xalq artisti, bəstəkar, dirijor, musiqişünas-alim Əfrasiyab Bədəlbəy oğlu Bədəlbəyli (1907 – 6.1.1976) Bakıda anadan olub. İlk Azərbaycan baletinin ("Qız qalası", 1940), musiqi tariximizə dair kitabların müəllifidir.

**19 aprel 1920** – Yazıçı-dramaturq Xalidə Məmməd qızı Hasilova (1920 – 5.12.1996) Zaqatalada anadan olub. "Nəğməli könül", "Məhəbbət olmayanda", uşaqlar üçün "Lalənin kitabı", "Atlas yarpaqlar" və s. kitabların müəllifidir.

**19 aprel 1927** – Əməkdar artist Tamara Nuran qızı Məmmədova (1927-2000) Naxçıvanda doğulub. Naxçıvan Musiqili Dram Teatrının aktrisası olub.

**19 aprel 1954** – Tanınmış rejissor, aktyor Rövşən Əziz oğlu Almuradlı (1954 – 2.4.2019) Bakıda doğulub. Şəki, Sumqayıt, Mingəçevir, Akademik Milli Dram teatrlarında tamaşalara, "Yük", "Cavad xan" filmlərinə quruluş verib.

**20 aprel 1894** – Xalq artisti, aktyor və rejissor Rza Abbasqulu oğlu Təhmasib (1894 – 14.2.1980) Naxçıvanda doğulub. "Bakıda küləklər əsir", "Qanun naminə" və s. filmlərdə çəkilib, "Arşın mal alan" (1945), "Onu bağışlamaq olarmı?" və s. filmlərin rejissorudur. Akademik Dram Teatrının direktoru, Azərbaycan Teatr Cəmiyyətinin sədri olub.

**20 aprel 1906** – Əməkdar incəsənət xadimi, ilk azərbaycanlı musiqişünas qadın Xurşid Ağayeva (1906 - 3.12.1953) anadan olub. Azərbaycan Xalq Cümhuriyyətinin qurucularından Həsən bəy Ağayevin qızıdır.

**20 aprel 1907** – Xalq şairi Məmməd Rahim (1907 – 6.5.1977) anadan olub. "Leninqrad göylərində", "Abşeron torpağında", "Natəvan" poemaları, "Xaqani" mənzum dramının müəllifidir. Rus ədəbiyyatından tərcümələr edib.

**20 aprel 1916** – Xalq artisti, görkəmli teatr və kino aktrisası Nəsibə Cahangir qızı Zeynalova (1916 – 10.3.2004) Bakıda anadan olub. 1938-ci ildən Musiqili Komediya Teatrında çalışıb. "Ögey ana", "Böyük dayaq", "Ulduz", "Qanun naminə", "Qayınana", "Yuxu" və s. filmlərdə yaddaqalan obrazlar yaradıb.

**20 aprel 1920** – Əməkdar incəsənət xadimi Əşrəf Hacı oğlu Quliyev (1920-1994) Bakıda doğulub. İrəvan Dövlət Azərbaycan Dram Teatrında aktyor, Akademik Milli Dram Teatrında rejissor işləyib. Mədəniyyət və İncəsənət Universitetində Rejissor sənəti kafedrasının müdiri olub.

**20 aprel 1920** – Yazıçı-dramaturq, şairə Xanımana Sabir qızı Əlibəyli (1920 - 7.5.2007) Bakıda doğulub. Uşaqlar üçün 30-dək kitabın, o cümlədən "Gözəllər gözəli", "Dovşanın ad günü" və s. pyeslərin müəllifidir.

**20 aprel 1926** – Tarzən Əlikram Həsən oğlu Hüseynov (1926–2006) anadan olub. Opera və Balet Teatrının orkestrində çalışıb, bir çox rəqslərimiz onun instrumental ifasında lentə alınıb.

**20 aprel 1944** – Azərbaycan xanəndəlik sənətinin görkəmli nümayəndəsi, bənzərsiz muğam ifaçısı, Xalq artisti Cabbar Qaryağdıoğlu (1861-1944) vəfat edib.

**21 aprel 1931** – Xalq artisti, pianoçu Tamilla Zahid qızı Mahmudova (1931 – 12.9.2014) Bakıda doğulub. Azərbaycan Radio Komitəsinin, 1954-cü ildən "Moskonsert"in solisti olub. Rusiyanın Əməkdar artisti adına layiq görülüb.

**21 aprel 1951** – Əməkdar artist, opera müğənnisi Cəlil bəy Əmrah oğlu Bağdadbəyov (1887-1951) vəfat edib.

**22 aprel 1894** – Xalq artisti Ağahüseyn Xəlil oğlu Cavadov (1894 – 20.7.1981) Bakının Xırdalan kəndində anadan olub. Türk İşçi, Akademik Dram, Musiqili Komediya teatrlarında işləyib. "Qızmar günəş altında", "Bir qalanın sirri", "Görüş", "Şərikli çörək" və s. filmlərdə maraqlı obrazlar yaradıb.

**22 aprel 1911** – Xalq rəssamı Hüseyn Əlirza oğlu Əliyev (1911 – 25.5.1991) Zəngəzur mahalının Comərdli kəndində doğulub. İlk karikaturaları "Molla Nəsrəddin" jurnalında dərc olunub, "Kommunist" qəzetində (indiki "Xalq qəzeti") rəssam işləyib. Əsasən qrafika ilə məşğul olub, mənzərə ustası kimi tanınıb.

**22 aprel 1912** – Əməkdar incəsənət xadimi, musiqişünas Məmmədsaleh Cəmil oğlu İsmayılov (1912 – 10.5.1994) anadan olub.

**22 aprel 1935** – Əməkdar artist Firdovsi Qiyas oğlu Naibov (1935 – 29.11.2009) Ağdamda doğulub. Milli Dram, Gənc Tamaşaçılar teatrlarının aktyor olub, Mədəniyyət və İncəsənət Universitetində dərs deyib.

**22 aprel 1942** – Görkəmli aktyor, Əməkdar artist Həsən Abbasqulu oğlu Əbluc (1942 – 13.3.1994) Təbrizdə doğulub. Uşaq yaşlarında ailəsi Bakıya köçüb. Televiziya tamaşalarında, kinoda ("Qanlı zəmi", "Tənha narın nağılı" və s.) maraqlı obrazlar yaradıb, "Pəncərə" filminə quruluş verib. Filmlərin səsləndirilməsində iştirak edib.

**22 aprel 1983** – Azərbaycanın ilk kino aktrisalarından olan İzzət Mirzəağa qızı Orucova (16.9.1909 – 1983) vəfat edib. "Sevil" (1929), "Almaz" (1936) filmlərində baş rollarda çəkilib.

**22 aprel 2014** – Prezident İlham Əliyev Azərbaycan xanəndəlik sənətinin görkəmli nümayəndəsi Keçəçioğlu Məhəmmədin 150 illik yubileyinin keçirilməsi haqqında sərəncam imzalayıb.

**23 aprel 1909** – Yazıçı-publisist Səməd Ağaoğlu (Səməd Əhməd bəy oğlu Ağayev; 1909 – 6.8.1982) Bakıda doğulub. Atası Azərbaycan Xalq Cümhuriyyətinin qurucularından olub, Cümhuriyyətin süqutundan sonra ailəsi Türkiyəyə mühacirət edib. Səməd Ağaoğlu Türkiyə Böyük Millət Məclisinin üzvü, baş nazirin müavini, nazir olub.

**23 aprel 2018** – Prezident İlham Əliyev görkəmli teatr rejissoru, aktyor, teatrşünas və pedaqoq, SSRİ Xalq artisti Mehdi Məmmədovun 100 illik yubileyinin keçirilməsi haqqında sərəncam imzalayıb.

### Dünya

**19 aprel 1832** – İspan dramaturqu, ədəbiyyat üzrə Nobel mükafatı laureatı (1904) Xose Eçerqay-i-Eysagirre (José Echegaray y Eizaguirre; 1832-1916) anadan olub. 60-dan çox dram əsərinin yarısını nəzmlə yazıb.

**20 aprel 1927** – Rus aktyoru Pavel Borisoviç Luspekayev (1927-1970) anadan olub. Ömrünün son illərində ayaq barmaqları amputasiya olunsa da, "Səhranın bəyaz günəşi" filmində çəkilib.

**21 aprel 1816** – İngilis yazıçısı və şairi Şarlotta (Charlotte) Bronte (1816-1855) anadan olub. "Ceyn Eyr", "Müəllim", "Yaşıl cırtdan" və s. romanların müəllifidir.

**22 aprel 1724** – Alman filosofu İmmanuel Kant (1724-12.2.1804) anadan olub. Əsərləri: "Saf idrakın tənqidi", "Mənəviyyat metafizikasının əsasları" və s.

**22 aprel 1899** – Rus yazıçısı Vladimir Nabokov (1899-2.7.1977) anadan olub. 1919-cu ildə mühacirətə gedib, Fransada vəfat edib. Əsərləri: "Maşenka", "Lujin müdafiəsi", "Qətlə dəvət", "Lolita" və s.

**22 aprel 1922** – Amerika caz musiqisinin məşhur nümayəndəsi Çarlz Maqnus (Charles Mingus; 1922-1979) anadan olub.

**23 aprel 1616** – İngilis şairi və dramaturqu Vilyam Şekspir (William Shakespeare; 26.4. 1564 – 1616) vəfat edib. "Romeo və Cülyetta", "Hamlet", "Kral Lir", "Otello", "Maqbet" və s. dram əsərlərinin, komediya və sonetlərin müəllifidir.

**23 aprel 1616** – İspan yazıçısı Migel de Servantes (Miguel de Cervantes Saavedra; 29.9.1547 – 1616) vəfat edib. Əsərləri: "Don Kixot", "Persiles və Sigizmunda" (roman), "Parnasa səyahət" (poema).

**23 aprel 1891** – Rus bəstəkarı Sergey Prokofyev (1891-1953) anadan olub. Əsərləri: "Hərb və sülh" (opera), "Romeo və Cülyetta", "Zoluşka" (balet) və s.

**23 aprel 1902** – İsland yazıçısı, Nobel mükafatı laureatı (1955) Haldour Kilyan Laksness (Halldór Kiljan Laxness; 1902-1998) anadan olub. Əsərləri: "İsland zınqırovu", "Qaytarılmış cənnət".

**Hazırladı: V.Orxan**

# “Türkiyədən sevgilərlə”

## Heydər Əliyev Mərkəzində rəssam Devrim Erbilin sərgisi

Türkiyənin tanınmış rəssamı Devrim Erbil aprelin 13-də Heydər Əliyev Mərkəzində “Türkiyədən sevgilərlə” adlı fərdi sərgisini təqdim edib.

Açılış mərasimində çıxış edən Heydər Əliyev Mərkəzi direktorunun birinci müavini Fərqan Novruzov sərgi barədə məlumat verib. Qeyd edib ki, Devrim Erbilin bu günədək müxtəlif ölkələrdə yüzlərlə sərgisi açılıb, əsərləri Türkiyənin və dünyanın bir çox muzey kolleksiyalarında yer alıb. Onun İstanbula həsr edilən əsərləri xüsusilə məşhurdur. Heydər Əliyev Mərkəzindəki sərgisində müəllifin həm də Bakıya həsr edilən əsərləri ilk dəfə nümayiş olunur.

Sərginin kuratoru Renk Erbil qardaş ölkədə olmaqdan məmnunluğunu bildirib: “Sizə, qardaş ölkəyə Türkiyədən bol-bol sevgi və rəssam, eyni zamanda atam Devrim Erbilin bir-birindən gözəl rəsm əsərlərini gətirdik. Sərginin özəlliyi ondadır ki, burada rəssamın hətta muzey kolleksiyalarından ibarət rəsmləri nümayiş edilir. Həmçinin gözəl şəhəriniz olan Bakını əks etdirən əsərlər də yer alır. Biz heç yerdə və heç bir məkanda bu qədər geniş sayda əsərlər sərgiləmirik, amma Azərbaycanın Erbil ailəsi olaraq bizim qəlbimizdə tam başqa yeri var...”.

Türkiyəli sənətşünas, professor Kiymet Giray rəssam və onun sərgisi haqqında danışıb. Bildirib ki, Devrim Erbil türk rəsm sənətinin məşhur sənətçisi olmaqla yanaşı, eyni zamanda dünya miqyasında ən tanınmış fırça ustadlarındandır. 1937-ci ildə anadan olan Devrim Erbil həyatının 60 ilini tarixi İstanbulda yaşayıb, yaradıb. Bu şəhərə olan bağlılığın onun yaradıcılığında xüsusi yeri var. Abstraksionist rəssam kimi tanınan D.Erbil İstanbuldakı Gözəl Sənətlər Dövlət Akademiyasında təhsil alıb. Bedri Rəhmi Eyuboğlu, Cemal Tollu, Cevat Derelinin sənət emalatxanalarında işləyən rəssam bir sıra kollektiv sərgilərdə öz əsərləri ilə yaradıcılığına diqqət cəlb etməyi bacarıb. Bunun sayəsində İspaniya hökumətinin təqaüdünə də layiq görülüb. Madrid və Barselonada başladığı sənət araşdırmalarını London və Parisdə davam etdirib. Əsərlərində təbiət mövzusuna üstünlük verən rəssam həmçinin beynəlxalq konfransların, seminarların təşkilatçısıdır. Rəssam Türkiyənin dövlət mükafatlarına, o cümlədən Dövlət rəssamı adına layiq görülüb. Türkiyədə onun adını daşıyan muzey və fond da fəaliyyət göstərir.



Devrim Erbil sərgisinin Bakıda keçirilməsindən qürur duyduğunu dilə gətirib: “Qardaş Azərbaycanın çox dəyərli insanları, hamınızı sevgi ilə qucaqlayıram. Məni və sənətçi ailəmi sevgi ilə qarşıladınız. Bunun üçün sizə sonsuz minnətdarlığımı bildirirəm. Bu mənim Bakıya ilk səfərim olmasa da, buralara yenidən gəlmək niyyətindəyəm. Bir ildir ki, Bakıda bu sərgini açmağı planlaşdırırdıq və nə gözəl ki, buna nail ola bildik. Sərgimin yüksək səviyyədə təşkilinə görə Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevaya və Heydər Əliyev Mərkəzinə, eləcə də əməyi keçən hər kəsə öz dərin təşəkkürümü bildirirəm. Qardaş Azərbaycana böyük hörmətim və sevgim var”.






Sonra tədbir iştirakçıları sərgi ilə tanış olublar. Heydər Əliyev Mərkəzində “Türkiyədən sevgilərlə” sərgisi sentyabrın 3-dək davam edəcək.

# Hindistan Çini arxada qoydu

Hindistan əhali sayına görə aylardır daban-dabana izlədiyi Çini artıq arxada qoyub. Dünya əhalisi və demoqrafiya üzrə müstəqil statistika təşkilatı – “World Population Review”in məlumatına görə, bu, aprelin 17-də baş verib.

Təşkilatın real vaxt rejimində təqdim etdiyi məlumata görə, həmin gün Hindistanda 1 425 937 441 nəfər, Çində isə 1 425 744 008 nəfər qeydə alınıb.

Hindistanın bu “yarış”da Çini üstələyəcəyi hələ yanvar ayında elan edilmişdi, amma bunun iyun ayında baş verəcəyi proqnozlaşdırılırdı. Hazırda Çində demoqrafik prosesdə mənfi tendensiya (0,1 faizdən 0,3 faizədək azalma) gedir, Hindistanda isə əhalinin artım tempi müsbət 0,7-0,9 faiz arasındadır. Ekspertlərə görə, ötən əsrin 80-ci illərindən Çində tətbiq edilən “1 ailə - 1 uşaq” formulu indi öz mənfi nəticələrini göstərir. Baxmayaraq ki, artıq bu məhdudiyyət götürülüb, üstəlik hökumət hətta ailədə 3 uşaq olmasını da təşviq edir, hələlik müsbət tendensiya görünmür. Ümumilikdə isə Çində demoqrafik qocalma (yaşlı əhalinin gəncləri üstələməsi) gedir.

Xatırladaq ki, BMT-nin Əhali Fondu (UNFPA) 2022-ci il noyabrın 15-də Yer kürəsində əhalinin sayının 8 milyard nəfərə çatdığını bildirib. Dünya əhalisinin 35 faizi Çinlə Hindistanın payına düşür.

# Süni intellekti özbaşına buraxmaq olmaz

İtaliyanın Məlumatların Mühafizəsi Agentliyi bildirib ki, ABŞ şirkəti aprel ayının sonuna qədər məlumatların qorunması və məxfilik tələblərinə əməl edərsə, OpenAI-nin ChatGPT süni intellekt (AI) texnologiyasına tətbiq etdiyi müvəqqəti qadağanı aradan qaldıracaq. Agentlik martın 31-də OpenAI-nin ChatGPT-yə müvəqqəti qadağa qoyub.

“Microsoft” tərəfindən dəstəklənən OpenAI-nin ChatGPT kimi süni intellekt sahəsində sürətli irəliləyişləri hökumətlərin bu texnologiyadan istifadəni tənzimləyən qanunlar üzərində razılaşmaq səylərini çətinləşdirib.

Avropa Məlumatların Mühafizəsi Şurası aprelin 13-də ChatGPT-də işçi qrupu yaratdığını və bunun süni intellektdə məxfilik qaydalarının müəyyən edilməsi üzrə ümumi siyasətə doğru potensial əhəmiyyətli ilk addım olduğunu bəyan edib. Aİ qanunvericiləri süni intellektlə bağlı məhsul və ya xidmətləri təmin edən hər kəsi idarə edəcək Avropa İttifaqının “AI Aktı”nın tətbiqini müzakirə edirlər. Bu qanun məzmun, proqnozlar, tövsiyələr və ya mühitə təsir edən qərarlar yarada bilən sistemləri əhatə edəcək. Qanunvericilər müxtəlif süni intellekt alətlərinin risk səviyyəsinə görə təsnifatını da təklif ediblər.



Yaponiyanın rəqəmsal transformasiya naziri Taro Kono ChatGPT daxil olmaqla, süni intellekt texnologiyalarını müzakirə etmək və vahid G7 mesajı vermək üçün aprelin sonunda keçiriləcək G7 rəqəmsal nazirlərinin görüşünün keçirilməsini təklif edib.

Nəhayət, süni intellekt texnologiyalarının istehsalçısı olan ABŞ hökuməti də bu məsələni tənzimləmək məqsədilə təkliflər irəli sürüb. Prezident Co Bayden əvvəllər elm və texnologiya məsləhətçilərinə süni intellektin xəstəliklər və iqlim dəyişikliyi ilə mübarizədə kömək edə biləcəyini deyib. Lakin o, bu texnologiyaların cəmiyyət, milli təhlükəsizlik və iqtisadiyyat üçün potensial risklərinin aradan qaldırılmasının da vacib olduğunu söyləyib.




## Olaylar, faktlar (19–23 aprel)

### 615 il əvvəl...

**21 aprel 1408-ci ildə** Sərdrud döyüşündə (Təbrizin yaxınlığında kənd) Qaraqoyunlu dövlətinin başçısı Qara Yusifin qoşunları Teymurləngin oğlu Miranşahın qoşunlarını məğlub edib. Miranşah öldürülüb, Azərbaycan torpaqlarında Teymurilərin (Əmir Teymur 1405-də vəfat etmişdi) hökmranlığına son qoyulub.

### 240 il əvvəl...

**19 aprel 1783-cü ildə** II Yekaterina Krımın Rusiyaya birləşdirilməsi barədə manifest imzalayıb. 1768-1774-cü illər müharibəsində Rusiyaya məğlub olan Osmanlı dövləti Krıma nəzarəti itirmişdi.

### 125 il əvvəl...

**21 aprel 1898-ci ildə** İspaniya ilə ABŞ arasında müstəmləkələrin bölüşdürülməsi ilə bağlı müharibə başlayıb. ABŞ üç ay sürən müharibədə Kuba, Puerto-Riko və Filippini ələ keçirdi. Bu, ABŞ-nin ilk uğurlu müstəmləkəçilik müharibəsi idi.

### 105 il əvvəl...

**22 aprel 1918-ci ildə** Zaqafqaziya Seyminin azərbaycanlı, erməni və gürcü deputatları paytaxtı Tiflis olmaqla Zaqafqaziya Demokratik Federativ Respublikasının yarandığını elan ediblər. Seymdə azərbaycanlı (44 nəfər) deputatların fraksiyasına M.Rəsulzadə rəhbərlik edirdi. Gürcü A.Çxengelinin başçılıq etdiyi hökumətə Azərbaycandan F.Xoyski, K.Məlik-Aslanov, N.Yusifbəyli, M.H.Hacinski və M.Heydərov daxil idilər. Federasiya bir ay sonra dağıldı. Mayın 26-da Gürcüstan, 28-də isə Azərbaycan və Ermənistan müstəqilliyini elan etdi.

### 103 il əvvəl...

**23 aprel 1920-ci ildə** Atatürkün başçılığı altında Ankarada Türkiyə Böyük Millət Məclisinin (TBMM) ilk toplantısı açılıb. TBMM-in yaradılması ilə Türkiyədə yadelli işğalçılara qarşı Qurtuluş savaşı mühüm mərhələyə qədəm qoydu. Cümhuriyyət qurulandan sonra




Atatürkün tövsiyəsi ilə 23 aprel Türkiyədə “Milli Müstəqillik və Uşaq Günü” elan edildi.

### 45 il əvvəl...

**21 aprel 1978-ci ildə** Azərbaycan SSR Ali Sovetinin sessiyasında Azərbaycanın yeni Konstitusiyası qəbul edilib. Konstitusiyada (maddə 73) Azərbaycan dili respublikanın dövlət dili təsbit olunub.

### 28 il əvvəl...




**23 aprel 1995-ci ildə** ilk dəfə Dünya Kitab və Müəllif Hüquqları Günü (World Book and Copyright Day) qeyd olunub. Bu gün UNESCO tərəfindən eyni tarixdə (1616-cı il 23 aprel) vəfat etmiş dünya ədəbiyyatının tanınmış simaları – ingilis şairi və dramaturqu Vilyam Şekspir, ispan yazıçısı Migel de Servantes və Peru yazıçısı İnka Qarsilaso de la Veqanın xatirəsinə ehtiram olaraq təsis edilib.

### 24 il əvvəl...

**23 aprel 1999-cu ildə** NATO-nun Vaşinqton sammitində keçmiş sosialist ölkələri Çexiya, Polşa və Macarıstanın alyansa qəbulu mərasimi keçirilib. NATO-nun Şərqə doğru genişlənməsi başlayıb.

### 5 il əvvəl...

**20 aprel 2018-ci ildə** Prezident İlham Əliyev “Mədəniyyət və turizm sahəsində dövlət idarəçiliyinin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında” sərəncam imzalayıb. Sərəncamla Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin əsasında Mədəniyyət Nazirliyi və Dövlət Turizm Agentliyi yaradılıb.

**Hazırladı: V.Orxan**

# Özbəkistanda “Qarabağ” geyim kolleksiyasının təqdimatı



Xəbər verdiyimiz kimi, Şuşa şəhərinin 2023-cü ildə “Türk dünyasının mədəniyyət paytaxtı” elan edilməsi ilə əlaqədar Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun təşəbbüsü və Özbəkistandakı Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzinin (AMM) birgə layihəsi əsasında Daşkənddə “Şuşa Günləri” (11-12 aprel) keçirilib.

Layihə çərçivəsində Azərbaycan Milli Geyim Mərkəzinin rəhbəri, Avrasiya Etnodizaynerlər Assosiasiyasının üzvü Gülnarə Xəlilovanın “Qarabağ” adlı kolleksiyası da maraqla qarşılanıb. Geyimləri Özbəkistan Dövlət Sənət və Mədəniyyət İnstitutunun tələbələri təqdim ediblər.

Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti Günay Əfəndiyeva, AMM-in direktoru Samir Abbasov, Azərbaycanın Özbəkistandakı səfiri Hüseyn Quliyev, Azərbaycan Milli Məclisinin deputatı Vüqar İsgəndərov, Özbəkistan Ali Məclisinin deputatı İqbal Mirzə və digər çıxış edənlər Azərbaycan-Özbəkistan dostluq əlaqələrindən bəhs edib, “Şuşa Günləri”nin əhəmiyyətini vurğulayıblar.

Tədbirdə iki ölkə sənətçilərinin iştirakı ilə konsert proqramı da təqdim olunub.

# Brodveydə “Opera kabusu”nun sonu

## 35 il səhnədən düşməyən müzikl axırıncı dəfə göstərilib

Brodveydəki (Nyu-York) “Macestik” teatrında bəstəkar Endrü Lloyd Uebberin (Andrew Lloyd Webber) “Opera kabusu” müzikli aprelin 16-da sonuncu dəfə oynanılıb. Brodvey tarixində ən uzunömürlü quruluşlardan birinin ilk dəfə səhnədə göstərildiyi vaxtdan 35 il sonra nümayişi dayandırılıb.




İngilis bəstəkarın fransız yazıçı Qaston Lerunun (Gaston Leroux) eyniadlı romanı əsasında ərsəyə gətirdiyi müzikl ilk dəfə 1986-cı ildə Londonda nümayiş etdirilmiş, 1988-ci ildən isə Brodveydə səhnə həyatına başlamışdı. Əsər Paris teatrının haqqında şayiə və əfsanələr dolaşan gizli sahibindən bəhs edir. Müzikl indiyədək dünyanın yüzdən çox ölkəsində səhnəyə qoyulub, amma ən böyük şöhrəti Nyu-Yorkdakı “Macestik” teatrında qazanıb.

Son nümayişdə tamaşanın quruluşçusu Endrü Lloyd Uebber, Kristina rolunun ilk ifaçısı – müğənni Sara Braytmzan, eləcə də bu tamaşada və onun əsasında 2004-cü ildə çəkilən filmdə yer alan aktyorlar iştirak ediblər. Finalda hazırkı aktyor heyəti və müziklin əvvəlki iştirakçıları “Gecənin musiqisi”ni səsləndiriblər.

Bu, “Macestik” teatrında “Opera kabusu”nun 13981-ci nümayişi idi. Brodvey səhnəsində bəzi günlər iki seans nümayiş olunan müziklə 20 milyon tamaşaçı baxıb. “Opera kabusu” ötən müddətdə ümumilikdə 1,3 milyard dollar gəlir gətirsə də, nümayişinin dayandırılmasının səbəbi kimi bilet satışından əldə olunan vəsaitin tamaşaya qoyulan xərclə müqayisədə az olması göstərilir. Hərçənd son tamaşa üçün qiyməti 500 dollara çatan bütün biletlər satılıb. Bildirilir ki, müziklə marağın azalmasında pandemiya da mənfi rol oynayıb. 2020-2021-ci illərdə “Macestik” teatrında nümayişə 18 ay ara verilmişdi.

Müziklin prodüseri Kameron Makintoş tamaşanın gələcəkdə Brodvey səhnəsinə qayıdacağını istisna etmir. Londonda isə “Opera kabusu”nun nümayişi davam edəcək.

**V.Kamal**

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri

MƏDƏNİYYƏT

Qəzet 1991-ci ilin yanvarından çıxır

**Baş redaktor:** Vüqar Əliyev

**Ünvan:** AZ 1012, Bakı şəhəri, Moskva prospekti 1D
Dövlət Film Fondu, 5-ci mərtəbə

**Telefon:** (012) 431-28-79 (baş redaktorun müavini)
431-57-72 (redaktor)
430-16-79 (müxbirlər)
530-34-38 (mühasibatlıq, yayım)
**E-mail:** qazet@medeniyyet.az
**Lisenziya №** AB 022279. **İndeks:** 0187. **Qiyməti:** 60 qəpik

“Mədəniyyət” qəzetinin kompüter mərkəzində səhifələnib,
“Azərbaycan” nəşriyyatında çap olunub.
**Tiraj:** 5050. **Sifariş:** 970
**Buraxılışa məsul:** Fariz Yunisli

Yazılardakı faktlara görə müəlliflər cavabdehdir.
Qəzetdə AZƏRTAC-ın materiallarından da istifadə edilir.

**Bank rekvizitləri:**
Kapitalbank 1 saylı Yasamal filialı
**Kod:** 200037. **VÖEN:** 9900003611. **SWIFT:** AIIBAZ2XXXX
**Müxbir hesab:** AZ37NABZ01350100000000001944

MADANIYYAT QAZETI REDAKSIYASI
**H/Hesab:** AZ98AIIB33080019443300232103. **VÖEN:** 1300338641